

## Region üçün yeni təhlükəli plan hazırlanır...

*“Hər hansı fövqəladə hadisə baş verməsə, 2023-cü ildə Türkiyədə, 2024-cü ildə Rusiyada, 2025-ci ildə isə Azərbaycanda növbəti prezident seçkiləri keçirilməlidir. Hər üç ölkənin hazırkı prezidentlərinin - Ərdoğan, Putin və Əliyevin yenidən seçkilərdə iştirakları üçün heç bir hüquqi maneə yoxdur.*

Səh.9


# UNİKAL

№44 (2082) 3 dekabr 2021-ci il

Qiyməti 40 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.org unikal-1@mail.ru




Səh.3

## Helikopter qəzasının yeni detalları...



## Tağı Əhmədovun hotel müamması...

### Sabiq "metro şefi"nin maliyyə problemi ucbatından yarımçıq saxladığı obyekt hazırda kimindir?

*Bakı Metropoliteninin sabiq rəisi Tağı Əhmədovun ölkənin qərb bölgəsində, konkret olaraq Ağstafa rayonunda bəzi biznes obyektlərinin olması barədə məlumatlar ölkə mətbuatında hələ uzun illər əvvəl yayılmışdı. O vaxt bildirilirdi ki, Tağı müəllim rayon mərkəzinə yaxın yerdə “Sezar” adlı böyük bir restoran-şadlıq sarayı tikdirib. 2009-cu ildə istifadəyə verildiyi deyilən həmin şadlıq sarayının 600-1000 nəfər arası adam tutduğu bildirilirdi. ”Rayondakı digər şadlıq evlərindən fərqli olaraq “Sezar”da toy sahibinə kənardan ət və ya digər ərzaq məhsulları gətirməyə icazə verilmir. Halbuki digər şadlıq evlərində toy etmək istəyənlər ərzağı özləri də ala bilər. “Sezar”da isə bir stulun minimum qiyməti 25 manatdır. Bu məbləğ isə kasıb rayon əhalisi üçün ciddi rəqəmdir” deyə o zaman medianın yazdıqlarında vurğulanırdı.*

Səh.6

## “Son dövrlər gənclər çox mühüm vəzifələrə gətirilirlər”



*Milli Məclisin İnsan hüquqları komitəsinin üzvü, deputat Naqif Həmzəyev ”Unikal” qəzetinə müsahibə verib. Millət vəkili gələn ilin büdcə layihəsi, gənclər və kadr siyasəti, eləcə də parlamentin fəaliyyəti ilə bağlı fikirlərini bölüşüb.*

Səh.4

## Elmar Məmmədyarovun ortaya çıxması...



*Xeyli vaxtdır kölgəyə çəkilən sabiq xarici işlər naziri Elmar Məmmədyarov bu gün Azərbaycan Futbol Federasiyaları Assosiasiyası (AFFA) İcraiyyə Komitəsinin iclasında görünüb. AFFA prezidenti Rövnəq Abdullayevin sədrlik etdiyi iclasa İcraiyyə Komitəsinin bütün üzvləri qatılıb, müzakirə olunan məsələlərə dair müvafiq qərarlar qəbul olunub.*

Səh.8

## Sığınacağa sığınan gələcəyimiz - Onlar da məişət zorakılığının hədəfinə çevrilib



*Güllü (adı şərtidir) iki aydan çoxdur ki, iki körpəsi ilə Təmiz Dünya Qadınlara Yardım İctimai Birliyinin məişət zorakılığı qurbanları üçün sığınacağında yaşayır. İki azyaşlı uşaqla sığınacaqda yaşamaq çətin olsa da, Güllü buna məcburdur. Çünki, sığınacaqdan başqa qalmağa yeri yoxdur.*

Səh.11

# İmkansızlıqdan şikayətlənən sənət adamlarını tənqid etdi



***"Adlar çəkib kimlərisə incitmək istəmirəm. Hər şeyi dövlətdən ummaq olmaz: ev, bağ, ad, orden versin. Xəstəyəm müalicə etsin, xərcimi çəksin, xaricə göndərsin...".***

Bu sözləri aparıcı Rövşanə Ağasəfqızı sosial şəbəkə hesabında yazıb. O, ev istəyən sənət adamlarını tənqid edib: "Təbii, söhbət sənətdə müstəsna xidməti olanlardan, sənət tarixinə imza atanlardan getmir. Bunu hamıya da şamil etmək olmaz. "Xalqa xidmət göstərmişəm" deyib, dövlətin boynuna minnət qoymağı yanlış hesab edirəm. Sevdiyin sənəti seçmisən, məşğul olmusan. Bu peşəyə görə az-çox məvacib almısan. Bu işə səni kimsə məcbur etməyib. Yenə deyirəm, sözüm sənəti böyük olanlara deyil. Ona qalsa, müəllim, həkim, polis, jurnalist, neftçi də xalqa xidmət göstərib. heç də az xidmət göstərməyib... Polisin gecəsi-gündüzü yoxdur, daima ayaqdadır. Xəstələnəndə car çəksin ki, dövlət bütün xərclərimi ödəsin? Kifayət qədər sənət adamına sahib çıxılıb, müalicə edilib, xaricə göndərilib. Düzdür, neçə sənət adamının acınacaqlı ölümünü də gördük: qapılarda, kimsəsiz, evsiz, eşiksiz. Bunun günahını dövlətdə görmək ədalətsiz olardı. İnsan həyatəni elə qurmalıdır ki, sabah doğmaları, əzizləri ona sahib çıxsın, övladları yiyə dursun. Qaldı ki, layiq olmayanlara verilməsinə... Bu başqa mövzudur".

Qeyd edək ki, son günlər Əməkdar artist Firuzə İbadova şəraitsiz evdə yaşaması ilə gündəmə gəlib.

# "Atamın bir sözünə görə "Maşın şou"-dan əlimi çəkib çıxmışdım" - Bilal Əliyev

***"Bu helikopter qəzası Allahın yazısıdır. Artıq qəzanı araşdırırlar. Çünki gözəl dövlətimiz, başımızın üstündə də Ali Baş Komandanımız var. Onlar özləri hər şeyi araşdırıb xalqa məlumat verəcəklər. Biz başqa heç nə deyə bilmərik, orada olmamışıq. Belə bir hadisə hamımızın başına gələ bilər. Yaşadığımız bina da partlaya bilər, qəza da ola bilər. Hətta təyyarənin elə yerləri var ki, göydə uçan quşlar ora dəyib, qəza vəziyyəti yarada bilərlər".***



"Unikal" xəbər verir ki, bunu moderator.az-a açıqlamasında xalq artisti Bilal Əliyev deyib. O daha sonra əlavə edib: "Cənab prezidentimiz bizim 30 illik həsrətimizə son qoydu, aşağı dikilən başımızı yuxarıya qaldırdı. Bu gün bütün dünya bizə qibtə edir, itirilmiş torpaqlarımızı geri qaytarmışıq. Bundan böyük xoşbəxtlik ola bilərmi? Bəs biz özümüz niyə bunu qiymətləndirməyək? Cənab prezident özbaşınalıq edən məmurları da cəzalandıracaq. Biz sənətçilər də öz sahəmizdəki işlərlə tamaşaçılarımızı sevindiririk. 10 mahnı hazırlamışam, onları da vaxtaşırı televiziya efirlərində oxuyuruq. Atama-anama da mahnı həsr etmişəm. Bilirsiniz ki, mən atamın bir sözünə görə "Maşın şou"-dan əlimi çəkib çıxmışdım. Mənə demişdi ki, əlini maşından çək, ordan sənə heç nə lazım deyil, insanlarla pis olma. Mən atamı, anamı özümdən çox istəmişəm. Onların sayəsində bu gün bu yerlərə gəlib çatmışam. Özləri yeməyib məni yedirdiblər, geyinməyib geyindiriblər. Hər zaman məzarlarını ziyarət edib, gül-çiçək qoyuram", - deyə Bilal Əliyev deyib.

"Niyə hələ də işğaldan azad olunmuş ərazilərdə sizi görmürük" sualını isə Bilal Əliyev belə cavablandırıb: "Təşkilatçılar bilirdilər ki, o vaxtları mənim səhhətim yaxşı deyildi. Dövlətimiz mənə qayğı göstərirdi ki, sağalım. Bəlkə onu nəzərə alıb dəvət etməyiblər ki, qoy sağlamlığını qorusun. Mən o qədər dövlət tədbirlərində iştirak etmişəm ki. O qədər yuxusuz gecələr görmüşəm, zülmlər çəkmişəm ki. Biz xalqa xidmət etmişik ki, bu bizim borcumuzdur. Biz də öz işimizi görmüşük, amma bu gün gənclərə yol vermək lazımdır. Biz necə deyə bilərik ki, hər efirdə biz olmalıyıq? Biz olmuşuqsa, bizdən sonra da kimlərsə olmalıdır. Qoy gənclər də qabağa getsinlər. Bizim elə nəhəng sənətkarlarımız olub ki, gənclərin qabağına sədd çəkiblər. Nəyə lazımdır axı bu?", - deyə sənətkar bildirib.



# "Azərbaycanda oğlan uşağı dünyaya gətirmək istəmirəm" - Səidə Sultan

***"Azərbaycanda oğlan uşağı dünyaya gətirmək istəmirəm".***

"Unikal xəbər verir ki, bu sözləri müğənni Səidə Sultan "Səhər mərkəzi" proqramında qonaq olarkən deyib.

"Özü də Azərbaycanda oğlan uşağı ümumiyyətlə istəmərəm. Çünki mən bilirəm ki, oğlum normal ağılda oğlan olmayacaq. Mən onu bir az başqa cür böyütmək istərəm. Bilirəm ki, Azərbaycanda oğlum söz götürməyəcək. Kiminsə balasını vurub bədbəxt edəcək. Ona görə oğlan istəmirəm. Oturmuşam da", - deyə Sultan bildirib.

Onun bu sözləri verilişin aparıcılarını təəccübləndirib.

# Bir neçə gün əvvəl toyu olan cütlüyün başına iş gəldi

***Bir neçə gün əvvəl toyu olan aktyor cütlük Əmrah Dadaşov və Asya Atakişiyevanın başına iş gəlib.***



Cütlüyün yaşadığı binada yanğın çıxıb. "Bizimləsən" proqramına telefonla zəng edən Əmrah bildirib ki, Asya və onun səhhətində problem yaranıb, tüstüdən zəhərləniblər:

"13-cü mərtəbədə yaşayırıq. Bloka çıxanda dedilər yanğın var, düşün aşağı. Asyaya dedim ki, hazırlaş çıxaq. Blokdan xəbərsiz idim. Yanğın 15-ci mərtəbədə başlayıb. Evimizlə bağlı tam məlumatlı deyiləm, amma deyirlər, yüngül zərər dəyib. Asyanın gözlərində problem var idi, yaxşı görə bilmir. Məndə isə nəfəsalma problemi yarandı. Həmin an dəhşət idi, indi-indi özümə gəlirəm. İndi dostlarımızın evindəyik. İki dəfə təcili yardım gəldi".

# Azərbaycanda ən populyar mahnılar açıqlandı

***"Apple Music"in Musiqi xidməti 2021-ci ildə Azərbaycanda dinlənilən ən populyar 100 mahnını açıqlayıb.***

"Unikal" "Apple Music"in Mətbuat xidmətinə istinadən xəbər verir ki, birinci pillədə avstraliyalı reper Masked Wolf-un ifa etdiyi "Astronaut In The Ocean" treki qərarlaşıb.

İlk onluqda, həmçinin bu mahnılar yer alıb: "Ptiçka" (HammAli & Navai), "Deep End" (Foushee), "Allah'ından Bul" (Ezhel), "Blinding lights" (The Weeknd), "Martılar" (Edis), "Ne boley" (Basta & Zivert), "Pustota" (Jony), "Cristal & MOЁT" (Morgenshtern) və "Beggin" (Maneskin).

"Apple Music"in yekun reytinqində Azərbaycan şou-biznesini təmsil edən cəmi iki ifaçının mahnısı yer alıb - "Karma", "Sayıram" və "Kəpənəklər" hitləri ilə Hiss və "Yenidən" treki ilə reper Paster.



## "Cənubi Qafqazda sülh üçün misilsiz imkanlar var" - Çavuşoğlu

***Hazırda Cənubi Qafqazda sülh üçün misli görünməmiş imkanlar mövcuddur.***

"Unikal"ın məlumatına görə, bunu Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu Stokholmda ATƏT Xarici İşlər Nazirləri Şurasının iclasında çıxışı zamanı deyib.

Onun sözlərinə görə, bu gün ATƏT 44 günlük müharibədən sonra yaranmış yeni reallığı nəzərə alaraq, əvvəl olmadığı qədər regionda sülhü dəstəkləyə bilər.

## "Bayraktar"lar havaya qalxdı

***Azərbaycan Hərbi Hava Qüvvələrinin döyüş hazırlığı planına uyğun olaraq Bayraktar pilotsuz uçuş aparatları (PUA) ilə təlim-məşq uçuşları icra edilib.***

Müdafiə Nazirliyindən "Unikal"a verilən məlumata görə, döyüş atışlı təlim-məşq uçuşlarında digər qoşun növü bölmələri ilə qarşılıqlı əlaqədə hava kəşfiyyatı aparılmaqla şərti düşmənin yerüstü hədəflərinin koordinatları təyin edilərək dəqiq zərbələrlə məhv olunub.

Aviasiya vasitələrinin uçuşları müəyyən edilmiş marşrutlar üzrə həyata keçirilib. Döyüş vərdişlərinin təkmilləşdirilməsi məqsədilə keçirilən məşqlərdə PUA operatorları tapşırıqları uğurla yerinə yetiriblər.

## "Hökumət buludu"nun yaradılması üçün sənədlər hazırlanır

***Hal-hazırda "Hökumət buludu"nun yaradılması üçün layihə-smeta sənədlərinin hazırlanması işi yerinə yetirilir.***

Bu barədə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyindən məlumat verilib. Bildirilib ki, "Hökumət buludu" Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin bulud operatorunun (AzInTelecom) hazırkı bulud infrastruktrunun (AZCLOUD) əsasında qurulacağı və "Hökumət buludu"na aid nəzərdə tutulmuş tariflərlə eyni olduğu üçün dövlət qurumunun bulud infrastrukturuna ehtiyacları indi də qarşılana bilər:

"Həmçinin, "Hökumət buludu" layihəsi üzrə miqrasiya məsələləri ilə bağlı dövlət qurumlarının daha geniş şəkildə məlumatlandırılması yönündə dəyirmi masa görüşləri və onlayn təlimlər keçirilir. Bugünədək 58 dövlət qurumunun İT şöbəsinin nümayəndələri ilə 20 dəyirmi masa görüşü və həmin qurumların qeyri-texniki şöbələrindən olan nümayəndələr üçün 4 onlayn təlim keçirilib. Sözügedən layihə çərçivəsində "Hökumət buluduna" keçidi nəzərdə tutulmuş digər dövlət qurumları ilə dəyirmi masa görüşlərinin cari ilin sonunadək keçirilməsi planlaşdırılır".

## Yevlaxdakı ehtiyat Data Mərkəzi gələn il hazır olacaq

***Yevlaxda inşası davam edən ehtiyat Data Mərkəz 2022-ci ildə istifadəyə veriləcək.***

Bu barədə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyindən məlumat verilib. Bildirilib ki, Yevlax alçatanlıq zonasının inşası başa çatıb, infrastruktur hazırdır.

"Əlavə olaraq, ABŞ-ın "Uptime Institute" təşkilatının sınaqlarından keçərək, "Tier 3 Facility" sertifikatına layiq görülüb. 2022-ci ildə istifadəyə verilməsi planlaşdırılır".

# Elmar Məmmədyarovun ortaya çıxması...

## Sabiq nazir özünün siyasi reabilitasiyasına başlayır?

***Xeyli vaxtdır kölgəyə çəkilən sabiq xarici işlər naziri Elmar Məmmədyarov bu gün Azərbaycan Futbol Federasiyaları Assosiasiyası (AFFA) İcraiyyə Komitəsinin iclasında görünüb. AFFA prezidenti Rövnəq Abdullayevin sədrlik etdiyi iclasa İcraiyyə Komitəsinin bütün üzvləri qatılıb, müzakirə olunan məsələlərə dair müvafiq qərarlar qəbul olunub.***



Həmin iclasdan sonra çəkilən fotoda yer alan sabiq XİN başçısının nisbətən arıqladığı və qalstuk taxmadığı diqqətdən qaçmayıb.

Xatırladaq ki, E.Məmmədyarov ötən ilin yayında, 60 yaşının tamam olmasından iki həftə sonra, 2020-ci il iyulun 15-də baş tutan Nazirlər Kabinetinin iclası zamanı ölkə başçısı Tovuz döyüşləri (həmin il iyulun 12-dən başlayaraq təxminən 10 gün davam etmişdir) dövründə Xarici İşlər Nazirliyinin və nazir Elmar Məmmədyarovun göstərdiyi fəaliyyəti sərt tənqid etdi. Dövlət rəhbəri həmçinin Məmmədyarovun rəhbərliyi altında son vaxtlarda Xarici İşlər Nazirliyinin əsas iş prinsipinin "dəymə mənə, dəyməyim sənə" prinsipinə əsaslandığını, yəni XİN-in hücum diplomatiyası əsasında işləyə bilmədiyini söylədi. Əslində ölkə rəhbərliyi XİN-in o vaxtkı başçısının işindən xeyli vaxt idi narazı idi; Tovuz döyüşləri zamanı Məmmədyarovun fəaliyyətsizliyi, hətta həmin günlərdə iş başında tapılmaması bu narazılığı daşıran son damla oldu. Əks təqdirdə Elmar müəllim həmin döyüşlərdən on gün öncə 60 illiyi münasibətilə ən azından hansısa şəkildə təltif edilərdi. Nəticədə 16 iyul 2020-ci ildə ölkə başçısının sərəncamı ilə Elmar Məmmədyarov xarici işlər naziri vəzifəsindən uzaqlaşdırıldı. Bunun ardınca isə eks-naziri şoka, eyni zamanda qorxuya salan hadisə yaşandı - onun Azərbaycanı tərk etməsinə qadağa qoyuldu; səbəb isə XİN sistemində yol verilmiş korrupsiya və mənimsəmələrə dair Dövlət Təhlükəsizliyi Xidməti (DTX) və Baş Prokurorluq tərəfindən aparılan istintaq idi. XİN-in bir neçə yüksək vəzifəli əməkdaşının rüşvət, korrupsiya və mənimsəmə ittihamları ilə DTX əməliyyatçıları tərəfindən həbsi hətta Məmmədyarovun özünün də qandallana biləcəyi ehtimalını gündəmə gətirmişdi. Lakin bu baş vermədi: keçmiş nazir "sudan quru çıxmağı" bacardı - ən azından hələlik!

"Hələlik" deyirik, çünki XİN-in bir neçə yüksək vəzifəli əməkdaşının rüşvət, korrupsiya və mənimsəmə ittihamları üzrə məhkəmə istintaqı davam edir. Prosesin nə ilə yekunlaşacağını demək tezdir.

Belə bir zamanda Məmmədyarovun ortaya çıxması isə maraq doğurmaya bilməz. Düzdür, ilk baxışda təəccüblü heç nə yoxdur: eks nazir hazırda rəsmi fəaliyyətini AFFA İcraiyyə Komitəsinin üzvü kimi davam etdirir. O, AFFA İcraiyyə Komitəsində Ümumazərbaycan Futbolsevərlərin İctimai Birliyi adından təmsil olunur. Məmmədyarovun səlahiyyət müddəti 4 ildir.

Bunu nəzərə aldıqda XİN-in sabiq başçısının AFFA-nın toplantısında görünməsi təbii sayıla bilər.

Lakin qəribədir ki, cəmi bir neçə ay öncə Elmar müəllim 61-ci yaş gününü yalnız ailə üzvləri ilə bərabər qeyd etməli olmuşdu. Bir vaxtlar doğum günlərində telefonları susmayan, təbrik üstünə təbrik alan keçmiş Xarici İşlər naziri bu dəfə ailə üzvlərinin, digər yaxınlarının təbrik mesajları ilə kifayətlənməli olmuşdu. Üstəlik, doğum gününü ölkədən kənarda, dünyanın lüks istirahət bölgələrində qeyd eləmək imkanı da baş tutmamışdı.

Bu barədə yayılan məlumatlardan onu başa düşmək olardı ki, Məmmədyarov vəzifəli dostları tərəfindən tamamilə tərk edilib, unudulub. Elə həmin səbəbdən də indi onun AFFA-nın toplantısında görünməsi maraq doğurur. Görünür, sabiq nazir özünün siyasi reabilitasiyasına başlamaq qərarına gəlib, bunun üçün isə AFFA İcraiyyə Komitəsinin üzvlüyündən istifadə etmək niyyətindədir.

***Sənan Mirzə***

# Heydər Əliyev Fondu Müqəddəs Məryəm kilsəsini bərpa edib

***Heydər Əliyev Fondu Bakı şəhərindəki Müqəddəs Məryəm katolik kilsəsində aparılan cari təmir-bərpa işlərini başa çatdırıb.***

Fonddan verilən məlumata görə, yüzlərlə katolikin ibadət etdiyi kilsədəki bərpa işləri zamanı hidroizolyasiya təmin olunmaqla dam örtüyü əsaslı təmir olunub.

Qeyd edək ki, kilsə 1912-ci ildə inşa edilib. Bolşeviklər hakimiyyətə gəldikdən sonra 1934-cü ildə bir çox dini abidələr kimi, bu kilsə də dağıdılmışdı. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra ümummilli lider Heydər Əliyevin göstərişi ilə dini məbədə ehtiyac duyan katoliklər üçün Bakıda yeni kilsənin inşa edilməsi



məqsədilə ərazi ayrılmışdı. Müqəddəs Məryəm katolik kilsəsi 2008-ci ilin mart ayından istifadəyə verilib.

Heydər Əliyev Fondu və Roma Katolik dini icması arasındakı əməkdaşlıqdan irəli gələrək Fond tərəfindən 2008-ci ilin sentyabrında katolik kilsənin asma tavan şüşələri dini mövzuda və klassik vitraj texnikasında işlənmiş bədii şüşələrlə əvəz edilib, eyni zamanda məbədin fasadında keramik panno yerləşdirilmişdi.

Xatırladaq ki, Heydər Əliyev Fondu və Roma Katolik dini icması arasındakı Anlaşma Memorandumu müəyyənləşdirilmiş sahələr üzrə inkişaf, yenidənqurma layihələrinin gerçəkləşdirilməsi, sosial və dini təyinatlı obyektlərə yardımla yanaşı, Azərbaycanda məskunlaşan xalqların etnomədəni inkişafına yönələn tədbirlərin həyata keçirilməsini də nəzərdə tutur.

# Region üçün yeni təhlükəli plan hazırlanır...

***“Hər hansı fövqəladə hadisə baş verməsə, 2023-cü ildə Türkiyədə, 2024-cü ildə Rusiyada, 2025-ci ildə isə Azərbaycanda növbəti prezident seçkiləri keçirilməlidir. Hər üç ölkənin hazırkı prezidentlərinin - Ərdoğan, Putin və Əliyevin yenidən seçkilərdə iştirakları üçün heç bir hüquqi maneə yoxdur. Hər üçü ölkələrində referendum keçirərək, Konstitusiyanı yeniləyib və yenidən seçilmələrinə hüquqi maneələri aradan qaldırıblar”.***

“Unikal” xəbər verir ki, bu fikirləri Ədalət Partiyasının sədr müavini, politoloq Elxan Şükürlü səsləndirib. O bildirib ki, son günlər verilən açıqlamalardan isə aydın olur ki, həm Ərdoğan, həm də Putin yenidən namizədliklərini irəli sürmək niyyətindədilər: “Ancaq ABŞ-ın yeni prezidenti Bayden nə Ərdoğanın, nə də Putinin yenidən prezident olmalarını istəmir. Heç Ərdoğan-Putin münasibətlərinin yaxınlaşdırılmasında xüsusi rolu olan Əliyevin də hakimiyyətdə qalmasını arzulamır. Xüsusən də bu üçlünün 2020-ci ildə - ABŞ-da seçkilərin getdiyi bir dönəmdə Qarabağ məsələsi üzərində anlaşarq, ABŞ-ı Cənubi Qafqazda “oyundankənar durum”da saxlamasını və ABŞ-ın istəyinin əleyhinə olaraq, rus hərbçilərinin “sülhməramlı” adı altında Qarabağda yerləşməsini və ardınca da Mərkəzi Asiya regionunda əməkdaşlığa başlamasını qətiyyən həzm edə bilmir. Elə bu səbəbdən də hər 3 prezidenti - Ərdoğan, Putin və Əliyevi ABŞ prezidenti Baydenin təşəbbüsüylə çağrılan ”Demokratiya Sammiti”nə dəvət etməyiblər. ABŞ bu addımıyla indidən Türkiyə, Rusiya və Azərbaycanda hər üç liderin hakimiyyəti dövründə keçiriləcək seçkilərin legitimliyini şübhə altına almaqla, faktiki olaraq, hər üç ölkədə hakimiyyət əleyhinə radikal çıxışlara, proseslərin qeyri-demokratik müstəvidə cərəyan etməsinə rəvac verməkdə maraqlı olduğunu ortaya qoymuş olur”.

Müsahibimiz qeyd edib ki, elə hər üç ölkədə son aylarda Qərbdən maddi və siyasi dəstək alan siyasi qüvvələrin maksimum dərəcədə fəallaşdırılması, iqtisadi və siyasi sabotajlara, hərbi təxribatlara əl atılması da bununla bağlıdır:

“Baxın, “dollar sabotajı”yla Türkiyə iqtisadiyyatı çalxalanır, əhalinin Ərdoğandan narazı düşməsi üçün hər şey edilir; sanksiyalar altında çabalayan Rusiya isə bütün sərhədləri boyu, xüsusən də Ukrayna istiqamətində hərbi fəallığa və müdaxiləyə təhrik edilir, Putinin korrupsiya əməllərini əks etdirən materiallar Qərb mətbuatında serial kimi yayılır və bu basqının qarşıdakı illərdə daha ciddi sanksiyalarla nəticələnməsi üçün əsaslar yaradılır...

Ən maraqlı ssenari isə Azərbaycan üzərində oynanılır: 44 günlük Qarabağ savaşında Rusiyanın neytrallığı və Türkiyənin də real dəstəyi ilə qələbə qazanan ölkəmizdə 1 ildir ki, çox fəal şəkildə sosial şəbəkələr üzərindən, kiberəməliyyatlar yoluyla anti-Rusiya təbliğatı altında 2005-ci ilin “Narıncı inqilabçılar”ının - Qərbyönümlü müxalifətin yenidən dirçəldilməsinə, ictimai rəydə mövqeyinin gücləndirilməsinə və aralarında təzədən ittifaq qurulmasına cəhdlər göstərilir: bir tərəfdən, 30 illik münaqişəni böyük hərbi zəfərlə bitirən hakimiyyətin bu uğurunun miqyasını kiçiltməyə, gözdən salmağa çalışır, bunun üçün də hökumətin korrupsioner və ədalətsiz mahiyyətindən hər fürsətdəcə çox məharətlə yararlanır, o biri tərəfdən də, var gücləriylə ölkədə olan tarixi anti-rus nifrətini körükləyib Əliyev hakimiyyətinin üzərinə istiqamətləndirməklə Rusiya-Türkiyə və Rusiya-Azərbaycan münasibətlərini gərginləşdirməyə çalışırlar...

Çünki ABŞ-da yaxşı bilirlər ki, Azərbaycan üzərində qurulan Rusiya-Türkiyə əməkdaşlığı iflasa uğrayarsa, bunun ilk zərbəsi Əliyevə, ardınca 2023 seçkilərində Ərdoğana, 2024-də də Putinə dəyəcək.

Elə Putin, Ərdoğan və Əliyev də bunu gözəl anlayırlar. Bu ilin 29 sentyabrında Soçidə keçirilən Putin-Ərdoğan, 26 oktyabrında Zəngəzurda keçirilən Ərdoğan-Əliyev və 26 noyabrında yenidən Soçidə keçirilən Putin-Əliyev görüşlərində Qərbə verilən mesaj o idi ki, Qarabağ üzərində qurulan Rusiya-Türkiyə-Azərbaycan ittifaqı ötəri xarakter daşımır və onlar Qərbin regiona bu dəfə Ermənistan üzərindən müdaxiləsini önləmək hazırlığındadılar.



Ardınca Aşqabadda “Rus NATO-su” adlandırılan KTMT üzvlərindən Qazaxıstan, Qırğızıstan və Tacikistanın bu təşkilatın Nizamnamə tələblərini pozaraq, hərbi müttəfiqləri Ermənistanı deyil, Türkiyənin hərbi müttəfiqi Azərbaycanı açıq şəkildə müdafiə etmələri, indiyədək proselərdən kənarda saxlanan İranın da Türkiyə, Rusiya və Azərbaycanın yer aldığı əməkdaşlıq platformasına cəlb edilməsi o anlama gəlirdi ki, Rusiya və Türkiyə heç bir halda Bayden administrasiyasına güzəştə getmək niyyətində deyillər və hətta region ölkələrinin bölgədə yeni və daha geniş hərbi təhlükəsizlik sisteminin qurulması istiqamətində də hansısa addımlar ata bilərlər”.

E.Şükürlü hesab edir ki, belə gərgin bir siyasi şəraitdə Qərbin uzun illər böyük diqqət yetirdiyi Azərbaycan Dövlət Sərhəd Xidmətinin 14 yüksəkrütbəli hərbçisinin həlak olmasıyla nəticələnən müəmmalı 30 noyabr helikopter qəzasının baş verməsinə adi qəza kimi yanaşmaq çox çətindir və bu işin bütün detalları, xüsusən də kiberhücum cəhdinin olub-olmaması xüsusi xidmət orqanlarımız tərəfindən mütləq şəkildə incəliyinədək araşdırılmalıdır: “Çünki bu qəza da, dərhal göründüyü kimi, son 1 ildə Rusiya-Türkiyə və Rusiya-Azərbaycan münasibətlərini gərginləşdirməyə çalışanların əlində çox böyük bir ideoloji mənbə rolunu oynayacaq, hakimiyyət əleyhinə çıxışlar üçün yeni fürsətlər açacaq.

Bunun ilk işartılarını isə Bakının mərkəzində təyin edilən aksiyadan da aydın gördük: 14 şəhidinin dəfn mərasiminin keçirilməsinə və polisin də geriyə addım atmayacağının bilindiyinə baxmayaraq, Qərbyönümlülərin aksiyası təxirə salınmadı. Deməк ki, ictimai qəzəbin yaradılması fonunda belə bir aksiyanın keçirilməsi Baydenin “Demokratiya Sammiti” öncəsi kimlərəsə çox gərəkliymiş. Hələ qarşıda bizi daha böyük sürprizlər gözləyir”.

***Z.Məmmədli***

## Azərbaycanda helikopterləri ən çox kimlər icarəyə götürür?

***Azərbaycan Respublikası ərazisində mülki helikopterlərlə sərnişin və yük daşımaları xidmətlərini həyata keçirirk.***

Bu barədə ”Unikal”ın sorğusuna cavab olaraq “ASG Helicopter Services” MMC şirkətindən bildirilib.

Qeyd olunub ki, şirkətin fəaliyyətinin əsas dairəsi dənizdə neftin hasilatı ilə məşğul olan iri neft şirkətlərini əhatə edir.

”Belə xidmətlər uzunmüddətli müqavilələr əsasında həyata keçirilir. ASG HS MMC bu sahədə yüksək peşəkarlığa malikdir”.

Şəxsi uçuşlar üçün müraciət edənlərə gəlincə, nadir hallarda olur ki, bu xidmətdən əsasən iş adamları istifadə edir deyə vurğulanıb:

”Eyni zamanda 2 ambulans hava gəmisi mövcuddur ki, təcili yardım sifarişləri olduqda, Azərbaycanın müxtəlif bölgələrinə uçuşlar yerinə yetirilə bilər. Bu fəaliyyət tibb müəssisələri ilə birgə həyata keçirilir”.

Helikopterlərin icarə haqqına gəlincə, bildirilib ki, hava daşımalarının qiymətləri istiqamətdən, uçuş saatından, hava şəraitindən və hava gəmisinin tipindən asılı olaraq fərqlənir. Bununla əlaqədar, vahid qiymət tətbiq edilməsi mümkün deyil.

***Anar Kəlbiyev***

## Sərnişindaşıma şirkətlərinə subsidiya veriləcək

***Nazirlər Kabineti “Avtomobil nəqliyyatı ilə müntəzəm şəhərlərarası (rayonlararası) və şəhərdaxili (rayondaxili), o cümlədən şəhərətrafı və qəsəbələrarası sərnişin daşımalarını yerinə yetirən daşıyıcılara istifadə olunan dizel yanacağına görə subsidiya verilməsinin müvəqqəti Qaydası”nı təsdiqləyib.***

“Unikal”ın məlumatına görə, qərara əsasən, Respublikasının İqtisadiyyat Nazirliyi Maliyyə Nazirliyi ilə razılaşdırmaqla, avtomobil nəqliyyatı ilə müntəzəm şəhərlərarası (rayonlararası) və şəhərdaxili (rayondaxili), o cümlədən şəhərətrafı və qəsəbələrarası sərnişin daşımalarını yerinə yetirən daşıyıcılara subsidiya verilməsi üçün növbəti illər üzrə tələb olunacaq vəsait barədə təkliflərini Nazirlər Kabinetinə təqdim etməli, avtomobil nəqliyyatı ilə müntəzəm şəhərlərarası (rayonlararası) və şəhərdaxili (rayondaxili), o cümlədən şəhərətrafı və qəsəbələrarası sərnişin daşımalarını yerinə yetirən daşıyıcılara qaydaya uyğun subsidiya ödənilməsini Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə birlikdə təmin etməli, avtomobil nəqliyyatı ilə müntəzəm şəhərlərarası (rayonlararası) və şəhərdaxili (rayondaxili), o cümlədən şəhərətrafı və qəsəbələrarası sərnişin daşımalarını yerinə yetirən daşıyıcılara verilən subsidiya barədə illik icmal hesabatı növbəti ilin 1 fevral tarixinədək Nazirlər Kabinetinə təqdim etməlidir.

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti və Bakı Nəqliyyat Agentliyi ilə birlikdə müntəzəm şəhərdaxili (rayondaxili), o cümlədən şəhərətrafı və qəsəbələrarası sərnişin daşımalarını yerinə yetirən subyektlərdə gediş haqqının nağdsız ödənilməsini təmin edən ödəniş sisteminə (ödəniş alətlərinə) keçidin sürətləndirilməsi ilə bağlı təkliflərini 2022-ci ilin 15 fevral tarixinədək Nazirlər Kabinetinə təqdim etməli, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti bu Qərarla müəyyən edilmiş müddəalar əsasında Naxçıvan Muxtar Respublikasında avtomobil nəqliyyatı ilə müntəzəm sərnişin daşımalarını yerinə yetirən daşıyıcılara istifadə olunan dizel yanacağına görə subsidiya verilməsi üçün tədbirlər görməlidir.

# Prezidentdən QHT-lərə Dövlət Dəstəyi Agentliyi ilə bağlı FƏRMAN



***Prezident İlham Əliyev "Azərbaycan Respublikasında qeyri-hökumət təşkilatlarına dövlət dəstəyi sahəsində idarəetmənin təkmilləşdirilməsi və "Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 13 dekabr tarixli 674 nömrəli Fərmanının ləğv edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 19 aprel tarixli 1317 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.***

"Unikal" xəbər verir ki, fərmana əsasən, sənədə yeni bənd əlavə edilib.

Belə ki, Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi bu Fərmanın 7.2-ci və 7.3-cü bəndləri icra olunanadək, qeyri-hökumət təşkilatlarının qrant maliyyələşməsi ilə bağlı müsabiqələrin keçirilməsinin müvəqqəti qaydasını, qrant məbləğinin müəyyən edilməsinin müvəqqəti meyarlarını və hər mövzu üzrə qrant məbləğinin yuxarı həddini, habelə Agentliyin maliyyələşdirdiyi layihələrin əlaqələndirilməsi və icrasına nəzarətin həyata keçirilməsi, icra olunan layihələrin monitorinqinin və qiymətləndirilməsinin aparılmasının müvəqqəti qaydasını təsdiq edəcək.

# Elmar Məmmədyarov arıqlamağının səbəbini açıqladı



***Dünən sabiq xarici işlər naziri Elmar Məmmədyarov AFFA İcraiyyə Komitəsinin iclasında iştirak edib. Onun ciddi şəkildə arıqlaması cəmiyyətdə müzakirələrə səbəb olub. Belə ki, insanlar sabiq nazirin hansısa xəstəlikdən əziyyət çəkdiyini iddia ediblər.***

Məsələ ilə bağlı Elmar Məmmədyarov "Unikal"a açıqlamasında heç bir xəstəlikdən əziyyət çəkmədiyini bildirib: "Uzun müddətdir idmanla məşğulam. Şükür Allaha, xəstəliklə bağlı hər hansı bir problemim yoxdur. İdmanla məşğul olduğum üçün 10 kiloqram arıqlamışam. İdmanla məşğul olmağı çox sevirəm. Sadəcə işlədiyim dövrdə idmanla məşğul olmağa vaxtım qalmırdı. Amma indi boş zamanım var və onu dəyərləndirirəm".

***Murad İbrahimli***

# "Ermənistana təklif vermişik" - Elnur Məmmədov

***"Biz Ermənistana sülh danışıqları ilə bağlı təklif vermişik".***

"Unikal" xəbər verir ki, bunu Azərbaycan XİN rəhbərinin müavini Elnur Məmmədov "Mədəniyyət naminə sülh" qlobal kampaniyasının Tərəfdaşlıq Forumunda deyib.

"Biz gələcəyə baxmalıyıq", - nazir müavini vurğulayıb. O, qaçqın və məcburi köçkünlərin sayına görə Azərbaycanın birinci yerdə olduğunu xatırladıb.

E.Məmmədov Azərbaycanda digər dinlərin nümayəndələrinə qarşı yaxşı münasibətin olduğunu da diqqətə çatdırıb.

Baş redaktor:
**Zaur Əhməd**

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.

Tiraj:2500

# Son sutkada neçə nəfər koronavirusa yoluxdu?

***Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 1772 yeni yoluxma faktı qeydə alınıb, 2103 nəfər müalicə olunaraq sağalıb.***

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Unikal"a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 21 nəfər vəfat edib.

# İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin Prezidentini təbrik etdi

***Prezident İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Əlahəzrət Şeyx Xəlifə bin Zayed Al Nəhyana məktub göndərib.***

"Unikal" xəbər verir ki, məktubda deyilir: "Əlahəzrət, Birləşmiş Ərəb Əmirliklərinin müstəqilliyinin 50-ci ildönümü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimiyyətlə təbrik edirəm.

İnanıram ki, Azərbaycan Respublikası ilə Birləşmiş Ərəb Əmirlikləri arasında güclü İslam həmrəyliyinə əsaslanan dövlətlərarası münasibətlər və əməkdaşlıq xalqlarımızın iradəsinə uyğun olaraq bundan sonra da dinamik şəkildə inkişaf edəcək və genişlənəcəkdir.

Bu əlamətdar bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə müvəffəqiyyətlər, Birləşmiş Ərəb Əmirliklərinin dost xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm".

# Ceyhun Bayramov Estoniya xarici işlər naziri ilə görüşüb

***2 dekabr 2021-ci il tarixində Azərbaycan Respublikası xarici işlər naziri Ceyhun Bayramov ATƏT-in Nazirlər Şurasının Stokholmda keçirilən 28-ci iclasında iştirakı çərçivəsində Estoniya Respublikasının xarici işlər naziri Eva-Mariya Liimets ilə görüşüb.***

Xarici İşlər Nazirliyindən "Unikal"a verilən məlumata görə, görüşdə nazir Ceyhun Bayramov üçtərəfli bəyanatların icrası ilə bağlı məsələlər, o cümlədən regionda nəqliyyat kommunikasiyalarının açılması ilə bağlı Azərbaycan tərəfindən görülən tədbirlər barədə qarşı tərəfə məlumat verib. O, beynəlxalq hüququn prinsiplərinə, xüsusilə dövlətlərin suverenliyi, ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığına hörmət əsasında Ermənistanla münasibətlərin normallaşmasının mümkün olduğunu vurğulayıb.



Görüşdə Azərbaycan ilə Estoniya arasında ikitərəfli əsasda və bir sıra beynəlxalq platformalarda, habelə Avropa İttifaqı çərçivəsində səmərəli əməkdaşlığın olduğu qeyd edilib. Tərəflər, ölkələrimiz arasında siyasi dialoqun davamlılığı, iqtisadi-ticarət sahələrində mövcud potensiala uyğun olaraq əlaqələrin inkişafının vacibliyi, o cümlədən ölkələrimiz arasında iqtisadi, yaşıl enerji, yüksək texnologiyalar, təhsil, humanitar və digər sahələrdə ikitərəfli münasibətlərin daha da genişləndirilməsinə dair fikir mübadiləsi aparıblar.

Görüşdə, o cümlədən Azərbaycan-Avropa İttifaqı əməkdaşlığı barədə fikir mübadiləsi aparılıb. Tərəflər, bu xüsusda Şərq Tərəfdaşlığı Sammitinə hazırlıq məsələlərini müzakirə ediblər.

Qarşı tərəf Şərq Tərəfdaşlığı çərçivəsində əməkdaşlığın, daha da genişləndirilməsi və dərinləşdirilməsinin böyük əhəmiyyətini vurğulayıb.

Görüşdə tərəflər, habelə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

# Yeni il şənlikləri ilə bağlı restoranlarda nəzarət gücləndirilləcək

***"Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi yeni il şənlikləri zamanı ictimai iaşə müəssisələrində xüsusi karantin rejiminin tələblərinə əməl edilməsilə bağlı nəzarət tədbirləri həyata keçiriləcək".***

"Unikal" xəbər verir ki, bunu Agentliyin Bakı regional bölməsinin rəisi Zaur Kərimov deyib.

O qeyd edib ki, şənlik keçirilmə qaydası Nazirlər Kabineti yanında Operativ Qərargahın təsdiq etdiyi təlimatlara uyğun olmalıdır: "Metodik göstərişlərin tələblərinə mütləq şəkildə əməl olunmalıdır. Korporotiv şirkətlərin təşkil edəcəyi şənlik mərasimlərinin iştirakçıların sayı barədə də portalda məlumat olmalıdır. Bu zamanda qeyd olunan tələblərə əməl edilməlidir".

Z.Kərimovun sözlərinə görə, yeni il şənliklərinin keçirilməsi üçün tələb olunan vaxtdan 5 gün əvvəl qeydiyyatdan keçmək kifayətdir.



# Elçin Quliyev şəhidlərin məzarlarını ziyarət etdi

2 dekabr tarixində Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyev və qurumun digər vəzifəli şəxsləri Dövlət Sərhəd Xidmətinin hərbi helikopterinin qəzaya uğraması nəticəsində həlak olmuş hərbi qulluqçular polkovnik Füzuli Cavadovun və kapitan Xəyyam Əliyevin məzarlarını ziyarət etmiş, onların əziz xatirələrini ehtiramla yad edərək məzarları üzərinə gül dəstələri qoymuşlar.



"Unikal"ın məlumatına görə, hər iki hərbi qulluqçu ailələrinin arzusu ilə müvafiq olaraq, Bakı şəhərinin Zirə və Əmircan qəsəbələrində dəfn edilmişlər.

Hərbi qulluqçuların ailələrinə baş çəkilmiş və baş sağlığı verilmişdir.

# Helikopter qəzasının yeni detalları...

## Qəza baş verəndə helikopter yerə toxunuşlarının arası bir neçə saniyə olmaqla, iki dəfə dəyib

***Noyabrın 30-da DSX-nin Mi-17 tipli hərbi helikopterinin Xızı rayonu ərazisində yerləşən "Qaraheybət" aviasiya poliqonunda təlim uçuşları yerinə yetirərkən qəzaya uğraması ilə bağlı bəzi detallar ilk dəfə açıqlanıb.***

Bildirilib ki, qəzaya uğramazdan əvvəl helikopter II helikopterə eniş komandası verə bilib: "Qəza baş verəndə helikopter yerə toxunuşlarının arası bir neçə saniyə olmaqla, iki dəfə dəyib. Birinci çırpılmada bəzi hissələr, o cümlədən, kiçik təkər, maşına məxsus pilləkən və raket bloku gövdədən ayrılaraq kənara düşüb. Ehtimal edilir ki, məhz ilk toqquşma nəticəsində təkan polkovnik-leytenant Emil Cəfərovu, kapitan Ramil Əbilovu helikopterin zərbə anında parçalan-



mış hissələrdən bayıra atıb. Nəticədə hər iki hərbçi həyat üçün xüsusi təhlükə olmayan xəsarətlər almaqla ölümdən xilas olublar. Ardınca helikopterin pərinin fırlanmasının gücü, eləcə də torpaqla toxunuşdan sonra maşının gövdəsinin yerin üzəri ilə dartılaraq sürüşməsi ikinci təkana səbəb olub. Bu isə yanacaq çənini yırtıb. Beləliklə, yanacaq kənara axmağa başlayıb. Ani qığılcım nəticəsində yanğın baş verib. Torpaq səthinə ikinci çırpılmada baş verən yanğın partlayışla nəticələnib və 14 nəfər həlak olub.

# İranın Zəngəzur dəhlizi ilə bağlı mövqeyi dəyişdi - Ermənistan narahatdır

***"Ermənilər həmişə elə düşünüblər ki, sanki bütün dünya bunlara borcludur". Bunu siyasi şərhçi Ceyhun Əhmədli deyib.***

O bildirib ki, rəsmi İrəvan Rusiyanın Ermənistandakı təsirini minimallaşdırmaq üçün cəhdlər edir: "Onların aləmində Rusiya və İran kimi dövlətlər öz milli maraqlarını bir kənara qoyub yalnız Ermənistana yardım etməlidirlər. 44 günlük müharibə zamanı, eləcə də postkonflikt dövründə Moskvanın obyektiv və rasional mövqeyi erməni cəmiyyətində anti-Rusiya ritorikasını daha da dərinləşdirib. Şübhəsiz, Paşinyan iqtidarı özü də bunda maraqlıdır. Qərbin təlimatları əsasında hərəkət edən hazırkı hakimiyyətin əsas hə-



dəflərindən biri cəmiyyətdə Rusiyaya qarşı nifrət aşılamaqla gələcəkdə Rusiyanın Ermənistandakı təsirini minimallaşdıra bilməkdir.

Son günlər İrəvan küçələrində İrana qarşı etirazlar da diqqəti cəlb edir. Düşünürəm ki, burada əsas nüans rəsmi Tehranın son davranışlarından qaynaqlanır. Belə ki, İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) Aşqabadda keçirilən XV zirvə toplantısında istər Azərbaycan və İran Prezidentlərinin təkbətək görüşü zamanı verilən mesajlar, istərsə də təbii qazın nəqlinə dair Azərbaycan, İran və Türkmənistan arasında imzalanan üçtərəfli saziş İrəvanda isterkaya səbəb olub. Hazırda Ermənistanı əsas narahat edən məqam İranın Zəngəzur dəhlizi ilə bağlı mövqeyinin dəyişməsidir. Gedişat onu göstərir ki, bu məsələyə artıq fərqli mövqedən - Azərbaycanın maraqları prizmasından yanaşmağa üstünlük verəcək. Bu mənada, ilk baxışdan spontan təsiri bağışlayan küçə nümayişlərinin əslində Ermənistan hakimiyyəti tərəfindən süni təşkil edilmiş etiraz aksiyası olduğunu ehtimal edə bilərik".

# Milli Məclisin binası qəzalı vəziyyətdədir? - Tender keçirilib

***Milli Məclisin inzibati binalarında cari təmir-bərpa işlərinin satın alınması ilə bağlı elan edilən açıq tenderə yekun vurulub.***

Tenderin qalibi "Texnomaks" Məhdud Məsuliyyətli Cəmiyyətdir. Qalib şirkətə 94514.17 manat ödəniləcək.

"Texnomaks" Milli Məclisin inzibati binasının I korpusunda divar və tavan çatlarının bərpası və şpaklyovka olunması, parket döşəmənin qaşınması və bərpa işləri, II korpusunda divar və tavan çatlarının bərpası və şpaklyovka olunması, IIIkorpusunda divar və tavan çatlarının bərpası və şpaklyovka olunması, parket döşəmənin qaşınması və bərpa işlərini görməlidir.

Qeyd edək ki, noyabrın 10-da Bakıda güclü küləyin əsməsi nəticəsində Milli Məclisin birinci korpusunun yuxarı mərtəbələrində binanın üzlükləri qoparaq AzTV-



nin həyətinə düşüb. Hadisənin videogörüntüsü sosial şəbəkələrdə paylaşılıb.

# İnfeksionist: "Omicron" gənclər arasında daha sürətlə yayılır"

***20-yə yaxın ölkə və regionda koronavirusun növbəti ştammı olan "omicron" müəyyən edilib.***

Xarici mətbuatın məlumatına görə, son 24 saat ərzində İspaniya, Avstriya, Yaponiya və Fransanın xaricdə yerləşən Reunion adasında ilk "omicron" infeksiyası halları qeydə alınıb. Avstraliya, Belçika, Botsvana, Kanada, Çexiya, Danimarka, Almaniya, Çin (Honq-Konqda), İsrail, İtaliya, Hollandiya, Portuqaliya, Cənubi Afrika, İsveç və digər ölkələrdə də yeni ştammla yoluxma halları artıq müəyyən edilib. Bəs "omicron" ştammının yoluxma riski koronavirusun mutasiyaya uğramış digər növlərindən nə qədər artıqdır? "Omicron" daha çox hansı yaş kateqoriyasını əhatə edir? İnfeksionist Nicat Əzimli Bakıvaxtı.az-a bildirib ki, COVID-19-un bu növünün gənclər arasında yoluxması digərlərinə nisbətən daha sürətlidir. Onun sözlərinə görə, ümumiyyətlə, "omicron" bütün yaş qruplarında özünü göstərir, lakin gənclər arasında daha sürətlə yayılır.

"Xəstəliyin klinik gedişatındaağırlıqartıbmı və ya azalıbmı" sualına cavabında infeksionist qeyd edib ki, bunu demək hələ tezdir. Onun sözlərinə görə, bunun üçün bir neçə həftə gözləmək lazımdır ki, müşahidələr aparılsın və statistikalar tərtib olunsun: "Bunun əsasında nə qədər yüngülləşmə və ya ağırlaşma olduğu görüləcək".

N.Əzimi bildirib ki, "omicron" özündə 80-ə yaxın mutasiya daşıyır: "Təkcə spayk proteinində 32 ədəd mutasiya var. Hansı ki, bu protein xəstəliyin əsas mexnizminə təsir edir. Qeyd edim ki, bu mutasiyalar "Delta" variantında 4 ədəd idi. Bu da özlüyündə xəstəliyin əlamətlərində və ağırlıq dərəcəsində dəyişikliklərin ola biləcəyini göstərir". Müsahibimizin dediyinə görə, xəstəliyi yenicə keçirmiş şəxs bu virusla qarşılaşdığıtəqdirdə yenidən xəstələnə bilər: "Hələ ki xəstəliklə bağlı müşahidələr aparılır və nəticələr bir neçə həftəyə biləcək. Vaksin şirkətləri artıq təkmilləşdirmə işlərinə başlayıblar".

# Zaur Əliyev özünə 200 minlik xidməti maşın aldı

***İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyev özünə yeni "BMW" markalı xidməti avtomobil alıb.***

"Unikal"ın əldə etdiyi məlumata görə, Z.Əliyev yeni xidməti avtomobilini "10-AA-766" dövlət qeydiyyat nişanı ilə idarə edir. Qeyd edək ki, həmin avtomobil 200 min manat dəyərindədir.

# Noyabrda 9 nəfər minaların qurbanı olub

***2021-ci ilin noyabr ayında 7 hadisə nəticəsində 9 nəfər minaya düşüb.***

"Minalar Əleyhinə Azərbaycan Kampaniyası" ictimai birliyindən "Unaikal"a verilən xəbərə görə, təşkilat tərəfindən rəsmi strukturlardan, regional koordinatorlardan və digər mənbələrdən alınmış məlumatlar nəticəsində 2021-ci ilin noyabr ayında 7 hadisə nəticəsində 9 nəfərin mina qurbanı olması qeydə alınıb.

"Nəticədə bir mülki şəxs həlak olub, 8 nəfər yaralanmışdır. (bir nəfər mina təmizləyən, bir nəfər sərhədçi, 2 nəfər Daxili Qoşunların hərbi qulluqçusu və 4 nəfər mülki şəxs). 2021-ci ilin noyabr ayında 6 hadisəyə piyadalar əleyhinə, 1 hadisəyə isə tank əleyhinə minalar səbəb olmuşdur. Hesabat dövründə minalarla bağlı hadisələr Cəbrayıl, Ağdam, Goranboy, Laçın, Füzuli və Zəngilan rayonlarının ərazisində baş verib.

"Minalar Əleyhinə Azərbaycan Kampaniyası" ictimai birliyi tərəfindən 2021-ci ilin ötən dövründə Azərbaycan Respublikasının 97 vətəndaşının minalardan və partlamamış hərbi sursatlardan zərər çəkdiyi qeydə alınıb. "Minalar Əleyhinə Azərbaycan Kampaniyası" ictimai birliyi bir daha əhaliyə müraciət edərək xahiş edir ki, işğaldan azad olunmuş ərazilərə səfər etməsinlər, partlamamış hərbi sursatlara toxunmasınlar".

# Bir gündə 37 mindən çox insan peyvənd olundu

***Azərbaycanda son sutkada koronavirus (COVID-19) əleyhinə 37 057 vaksin vurulub.***

Nazirlər Kabineti yanında Operativ Qərargahdan verilən məlumata görə, bir gündə birinci mərhələ üzrə vaksinasiya olunanların sayı 4 187, ikinci mərhələ üzrə vaksinasiya olunanların sayı 5 456, buster doza üzrə vaksinasiya olunanların sayı isə 27 414 nəfərdir.

Ölkədə vurulan vaksinlərin ümumi sayı 10 604 976, birinci mərhələ üzrə vaksinasiya olunanların ümumi sayı 5 087 717, ikinci mərhələ üzrə vaksinasiya olunanların sayı 4 578 492, buster doza üzrə vaksinasiya olunanların sayı isə 938 767 təşkil edir.

# “Son dövrlər gənclər çox mühüm vəzifələrə gətirilirlər”

## Naqif Həmzəyev: “Gənclərin uğur qazanması üçün təcrübəli kadrların onlarla birlikdə çiyin-çiyinə çalışması çox vacibdir”

***Milli Məclisin İnsan hüquqları komitəsinin üzvü, deputat Naqif Həmzəyev ”Unikal” qəzetinə müsahibə verib. Millət vəkili gələn ilin büdcə layihəsi, gənclər və kadr siyasəti, eləcə də parlamentin fəaliyyəti ilə bağlı fikirlərini bölüşüb.***

***-Bu həftə parlamentin növbəti iclası keçiriləcək və 2022-ci ilin büdcə zərfinə daxil olan məsələlər 3-cü (sonuncu) oxunuşda müzakirəyə çıxarılacaq. Hansı sahələrə əlavə vəsaitin ayrılmasını təklif edərdiniz?***

-2022-ci il üzrə dövlət büdcəsi haqqında qanun layihəsi iki oxunuşda qəbul edilib, bu gün isə III oxunuşda müzakirəyə çıxarılacaq. Büdcə layihəsinin müzakirəsi zamanı çox maraqlı təkliflər və fikirlər səsləndirilib. Uzun müddətdir həm komitələrdə, həm də plenar iclasda büdcə layihəsini müzakirə edirik. Bu müzakirələr faydalı olur. 2020-ci ildə Azərbaycan uzun illərdir həll olunmayan Qarabağ probleminin həllinə nail oldu. Cənab Prezidentin rəhbərliyi ilə rəşadətli Ordumuz erməni terroristlərini, faşistlərini Azərbaycan torpaqlarından çıxardı. Vətən müharibəsində qalib gəldik. Həmçinin, 2020-ci ildən bütün bəşəriyyət, o cümlədən Azərbaycan COVİD-19 pandemiyası ilə mübarizə aparır və bu gün də davam edir. Bu xərclərə baxmayaraq, həm 2021, həm də növbəti ilin büdcəsi artıb. 2022-ci ilin dövlət büdcəsi müstəqillik tarixində ən böyük büdcə olacaq. Bu qədər çətin bir dövrün olmasına baxmayaraq, büdcəmizi azaltmamışıq, əksinə çoxaltmışıq. Bu büdcədə bütün mümkün meyarlar nəzərə alınıb. Ötən ilin büdcəsi ilə müqayisədə əksər sahələrdə artım müşahidə olunur. Büdcə mövcud reallıqlar fonunda mükəmməl hazırlanıb. İstərdim ki, gələcəyimiz olan gənclərimizin savadlı, bilikli, milli ruha və dəyərlərə bağlı tərbiyə alması üçün təhsil, elm xərclərinin artırılmasına üstünlük verək. Həmçinin, sağlam həyat tərzinin təbliği, insanlarımızın səhətlərinin yaxşı olmasının əsas səbəbləri kimi sağlam həyat tərzinə gəncləri meylləndirmək, bunu kütləviləşdirmək üçün idman və gənclər sahəsinə diqqətin, xərclərin artırılmasını çox istərdim. Bununla yanaşı 44 günlük Vətən müharibəsində əldə etdiyimiz zəfər birbaşa şəhidlərimizin və qazilərimizin şücaəti, qəhrəmanlığı ilə bağlıdır. Dövlət bu sahəyə böyük diqqət ayırır. İstərdim ki, növbəti ilin dövlət büdcəsində şəhid ailələrinin və qazilərin sosial durumunun yaxşılaşdırılması, onların mənzillə təmin edilməsi məsələsinə əlavə vəsaitlər ayrılsın. Bu gün əsas hədəfimiz Qarabağa böyük qayıdışı uğurla həyata keçirməkdir. Bir il ərzində bu sahədə xeyli iş görülüb. Əlavə vəsaitlər olacağı təqdirdə, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının dirçəldilməsi, həmin ərazilərin cənnət- məkana çevrilməsi üçün vəsaitlərin artırılmasını istərdim. Ümid edirəm ki, belə də olacaq.

***-Ötən iclasda şəhid ailələrinə və qazilərə ictimai nəqliyyatdan istifadə zamanı güzəştlər edilməsini təklif etdiniz. Bu təklif müsbət qarşılandı. Təklifinizin reallaşdırılması üçün hansı addımlar atılmalıdır?***

-Müzakirələr zamanı müxtəlif təkliflər səsləndirdim. Vətəndaşlarımız üçün maraqlı olan və onların istəkləri olan təkliflərlə çıxış etdim. Eyni zamanda təmsil etdiyim Gəncə şəhərinin problemləri ilə bağlı bir neçə əsas məqamları dilə gətirdim, onların həlli üçün büdcədən vəsait ayrılmasını xahiş etdim. Bu təkliflər arasında ictimai nəqliyyatda güzəştlərlə bağlı fikirlər də var idi. Şəhid ailələri və qazilər üçün ictimai nəqliyyatdan istifadə zamanı güzəştlərin tətbiq edilməsini təklif etdim. Həmçinin, müəllim, şagird və tələbələrin də ictimai nəqliyyatdan istifadəsi zamanı güzəştlər tətbiq edilməsinin vacibliyini vurğuladım. Məlum olduğu kimi, böyük şəhərlərdə ictimai nəqliyyatdan istifadə zamanı kartlardan istifadə olunur. Əvvəlki dövrlərdən fərqli olaraq indi ictimai nəqliyyatdan istifadə zamanı sosial qruplar üzrə bu cür kartların verilməsi mümkündür. Həmçinin, böyük şəhərlərdə tıxac olur. Tıxacın yaranmasının əsas səbəblərindən biri də ondan ibarətdir ki, hər kəs şəxsi avtomobilindən istifadə edərək dərsə, işə gedir. Müəllim, tələbə və şagirdlərin ictimai nəqliyyatdan güzəştlə istifadə etməsi mümkün olacağı təqdirdə, düşünürəm ki, onlar şəxsi avtomobildən deyil, ictimai nəqliyyatdan istifadə edəcəklər. Belə olduğu halda müəyyən qədər tıxacın qarşısı alınacaq. Şəhid ailələrinə, qazilərə, tələbə, müəllim və şagirdlərə sosial qayğı göstərmək və onların xərclərini azaltmaq məqsədilə bu güzəştlər edilsə, çox yaxşı olardı. Gələcəkdə təqaüdçülərə də bu cür güzəştlərin edilməsi çox effektiv nəticələr verər.

***-Ümumiyyətlə, deputat olduğunuz dönəmdə bir sıra təkliflərlə çıxış etmisiniz. Bunlardan reallaşanı varmı?***

-Həm V, həm də VI çağırış dönəmində müxtəlif təkliflərlə çıxış etmişəm. Bu təkliflərin böyük əksəriyyəti öz həllini tapıb. Bunlardan ən əsası gəncəlilər üçün maraqlı olan bir məsələ var idi. Gəncə hava limanının kodu keçmiş Kirovabad adı ilə bağlı olaraq ”KVD” işlənirdi. Bu da müəyyən suallar doğururdu. Bir neçə dəfə bu məsələnin həlli ilə bağlı aidiyyatı qurumlara müraciət etdim. Bu il həmin ”KVD” kodu dəyişdirilərək Gəncə adına uyğunlaşdırılaraq ”GNJ” adlandırıldı. Bir zaman Gəncə-Bakı təyyarəsinin fəaliyyəti dayandırılmışdı. Təklif etdim və həmin reys bərpa olundu. Gəncə-Naxçıvan reysinin bərpa olunmasını hər dəfə səsləndirirdim. Bu il həmin problem də öz həllini tapdı. Artıq həftədə bir dəfə Gəncə-Naxçıvan reysi fəaliyyət göstərir. Gəncə şəhərində Azərbaycan Dövlət Aqrar Universiteti fəaliyyət göstərir. Əvvəllər universitetin təcrübə mərkəzinin torpaq ehtiyatı çox az idi. Təklifimdən sonra bu məsələ də öz həllini tapıb. Universitetin təcrübə mərkəzi çox uğurla fəaliyyət göstərir. Təkliflər çoxdur, bəziləri həllini tapıb, bəziləri isə həll olunmaq üzrədir.

***-Siz gənclərlə daha sıx işləyirsiz. Ən çox gənclər hansı problemlərlə bağlı sizə müraciət edir?***

-Gənclər elə bir kateqoriyadır ki, hər bir zaman inkişafa meyllidirlər, həmişə yenilik axtarışında olurlar. Hər bir zaman gənclərin təkliflərini, istəklərini və problemlərini dinləyirəm. Azərbaycanda gənclər siyasəti uğurla həyata keçirilir. Gənclərin ideya və fikirlərini reallaşdırması üçün münbit şərait var. Gənclər Azərbaycanda asanlıqla uğur qazana bilər. Gənclərin daha çox müraciəti isə işlə bağlı olur. Bunun da əsas səbəblərindən biri gənclərin zamanında düzgün ixtisasa yiyələnməməsi və yaxud əmək bazarında tələbat olan ixtisasda olmamalarıdır. Bununla bağlı dəfələrlə çıxış etmişəm ki, universitetlərdə tədris olunan ixtisasları dəyişdirməliyik. Onları müasir dövrün tələblərinə cavab verəcək, rəqabətə dözə biləcək ixtisaslara dəyişməliyik. Belə ki, tələbələr bu ixtisaslara yiyələndikdən sonra asanlıqla əmək bazarında iş tapa bilsinlər. Tələbələrin və gənclərin müraciətlərinin mümkün qədər həllinə çalışırıq. Aidiyyatı qurumlarla onların iş problemlərinin həllini reallaşdırmaq istəyirik. Bəzən bu mümkün olur, bəzən isə gənclərimizin başqa ixtisaslara yiyələnməsi üçün onları bu yolla getməyə çağırırıq. Bu da effektiv nəticəsini verir. Bazarda tələb olunan ixtisaslara yiyələnən gənclər asanlıqla məşğulluq problemlərini həll edə bilirlər. Bununla yanaşı gəncləri ən çox narahat edən məsələlərdən biri mənzil problemlərinin həlli ilə bağlıdır. Xüsusilə gənc ailələr bununla bağlı müraciət edirlər. İpoteka Fondu böyüyür, dövlət tərəfindən buna böyük maraq var. Gənclərimiz güzəştli ipoteka yolu ilə mənzil problemini həll edə bilirlər. Gələcəkdə güzəştli mənzillərin, ipotekanın verilməsi üçün şərtlərin daha da asanlaşdırılmasını təklif edirəm.

***-Son vaxtlar gənc kadrlar bir çox sahələr üzrə yüksək vəzifələrə təyin olunur. Sizcə, vəzifəyə təyin olunan gənclər etimadı doğrulda bilirlərmi?***



-Cənab Prezident gənclərə çox böyük diqqət göstərir. Son dövrlər gənclər çox mühüm və vacib vəzifələrə gətirilirlər. Bu gənclərin böyük əksəriyyəti etimadı doğruldur. Onlar dövlətimizin, hökumətimizin qarşıya qoyduğu vəzifələrin layiqincə yerinə yetirilməsi üçün öz səylərini əsirgəmirlər. Gənclər savadlı, bilikli olsalar da, bəzən təcrübələri müəyyən qədər azlıq təşkil edir. Bu baxımdan düşünürəm ki, gənclərin uğur qazanması üçün təcrübəli kadrların onlarla birlikdə çiyin-çiyinə çalışması çox vacibdir. Gənclər nə qədər savadlı olsalar da, yaşlı nəsillə birlikdə çalışsalar çox yaxşı olar. Çünki milli-mənəvi dəyərlərə bağlı gənclərin bu vəzifələrdə uğur qazanması və etimadı doğrultması hər kəsi sevindirir. Bizim gələcəyimiz gənclərdir. Bu baxımdan gənclərin təhsil, bilik və bacarıqlarının artırılması üçün şəraitin daha da yaxşılaşdırılmasına diqqəti artırmağı təklif edirəm. Bu gün Azərbaycanda fəaliyyət göstərən bəzi universitetlər dünya, Avropa universitetləri ilə rəqabətə girə biləcək səviyyəyə gəlib çatıblar. Məktəblərimizdə də maddi-texniki baza güclənib. Əvvəlki dövrlərdən fərqli olaraq savadlı gənclərin sayı daha da artacaq. Azərbaycanda keçirilən ”Yüksəliş” müsabiqəsi zamanı ölkəmizdə necə bilikli gənclərimizin olduğunu gördük. Bu gün həmin gənclər ehtiyat kadr siyahısında saxlanılırlar. Düşünürəm ki, yaxın dövrdə bu gənclər ən vacib və məsuliyyətli vəzifələrə gətiriləcəklər.

***Anar Kəlbiyev***

# Əbülfəs Qarayevin ailə şirkəti "yoxa çıxıb"

## Mədəniyyət Nazirliyindən çoxsaylı sifarişlər alan MMC ilə bağlı maraqlı faktlar ortaya çıxdı

***Azərbaycanın sabiq Mədəniyyət naziri Əbülfəs Qarayevin ailə şirkətlərindən biri "Yol+İlk Elmi Populyar Dərgi Redaksiyası" MMC fəaliyyətini dayandırıb. Bu barədə "Unikal" qəzetinin redaksiyasına məlumatlı mənbələrdən bildirilib.***

Qeyd edək ki, sözügedən şirkət 2006-cı ilin martında sabiq nazirin həyat yoldaşı Kazımova Lalə Tofiq qızının adına təsis edilib. Şirkətin qeydə alındığı ünvan Ə.Qarayevin "ailə biznesi"nin "baş qərargahı" sayıla bilər. Belə ki, Əbülfəs müəllimin yeganə övladı - qızı Suad Qarayeva hələ 2002-ci ildən ad və soyadının baş hərflərini özündə ehtiva edən "SQ-FUTURE" MMC yaradıb. Həmin MMC paytaxtın Səbayel rayonu Müslüm Maqomayev küçəsi, ev 22-də hüquqi qeydiyyatdan keçib.

Elə L.Kazımovanın adına olan şirkət də məhz bu ünvanda qeydə alınıb.

Qeyd edək ki, Lalə xanım həm də "Jazz Dostları" ictimai birliyinin də təsisçisidir.

Ümumiyyətlə isə sabiq nazirin ailə biznesində onun həyat yoldaşının adı ilə bağlı bir neçə şirkət var. Belə ki, L.Kazımova 2010-cu ilin dekabrında Türkiyədə ad və soyadının abbreviaturasını ifadə edən KL Bodrum Emlak Ticaret ve Sanaye Limited Şirketi-ni təsis edib. Şirkət İstanbul Ticaret Sicili Memurluğunda 5000 TL nizamnamə kapitalı ilə qeydiyyatdan keçib. Nizamnaməyə görə Qarayevlərin ailə şirkəti Türkiyədə və ölkə xaricində turizm obyektləri, otel, yaşayış binaları, villa və idman təsisatlarının sahib olmaq, işlətmək hüququ qazanıb.

Sabiq nazirin Türkiyədəki turizm təsisatları barədə geniş məlumat olmasa da, onun xanımının sosial şəbəkələrdəki hesabında Bodrumdakı beşulduzlu Kuum otelinin simvolunu (qoşaqanadlı mələk) profil şəkli seçməsi maraq doğurur.

L.Kazımovanın adına Litvada da şirkət qeydiyyata alınıb. "TRIAT EXIRE" UAB (LTD, qeydiyyat nömrəsi 302521161) 10 ildən çoxdur ki, Litvanın daşınmaz əmlak bazarında fəaliyyət göstərir. Vülnüsdə Şaltiniy 22-də Qarayevlər ailəsinə məxsus çoxsaylı daşınmaz əmlak icarəsindən gəlir 35 min dollardan artıqdır.

İndi isə qayıdaq "Yol+İlk Elmi Populyar Dərgi Redaksiyası" MMC-yə... Şirkətin 2006-cı ildə təsis edilməsi maraq doğurur. Məsələ burasındadır ki, elə həmin il Əbülfəs müəllim Mədəniyyət və Turizm naziri vəzifəsinə təyinat alıb. Bundan sonra isə adıçəkilən şirkəti, demək olar, Qarayevin nazirliyi maliyyələşdirib. Belə ki, nazirlik Əbülfəs müəllimin həyat yoldaşına məxsus adıçəkilən MMC-nin çoxsayda layihələrinə kifayət qədər ciddi məbləğdə maliyyə vəsaitləri ayırıb. Bu isə açıq-aşkar korrupsiya faktı deyilsə nədir?

Fikrimizi sübut edən başqa bir fakt: Ə.Qarayevin nazir postundan uzaqlaşdırılmasının ardınca onun həyat yoldaşının şirkəti də faktiki olaraq fəaliyyətsiz vəziyyətə düşüb. Belə ki, "Yol+İlk Elmi Populyar Dərgi Redaksiyası" MMC-nin adı sonuncu dəfə 2019-cu ilin sentyabrında "Gənclik Mall" TM-də yerləşən "CinemaPlus" premium kinoteatrında "Əlvida, Şmidt!" filminin qala-gecəsi ilə bağlı gündəmə gəlib. Həmin vaxt bildirilib ki, Mədəniyyət Nazirliyinin sifarişi ilə "Mozalan" studiyası və "YOL" İlk Elmi Populyar dərginin ərsəyə gətirdiyi ekran işi tragikomediya janrındadır.



Göründüyü kimi, Qarayev öz nazirliyinin sifarişini yenə də xanımının adına yaradılmış şirkətə həvalə edib.

Üstəlik, filmin yaradıcı heyəti arasında Lalə Kazımovanın da adı var. O, adıçəkilən ekran işinin bədii rəhbəri kimi təqdim olunub. Fikrimizcə, əlavə şərhə ehtiyac qalmır...

Sonda sadəcə onu xatırladaq ki, 2020-ci ilin may ayında Dövlət Təhlükəsizliyi Xidməti (DTX) Mədəniyyət Nazirliyində anti-korrupsiya əməliyyatı həyata keçirmiş, nəticədə Əbülfəs müəllimin müavini Rafiq Babayevlə Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin keçmiş rəisi Zakir Sultanov konkret cinayət əməllərinə görə həbs edilmişdilər. Bundan sonra cəmiyyətdə eks nazirin özünün də cinayət məsuliyyətinə cəlb ediləcəyi yönündə haqlı gözləntilər ortaya çıxmışdı. Lakin Qarayev özünü xilas etməyi bacardı. Halbuki uzun illər boyunca ölkə mədəniyyətini faktiki iflic etmiş, bu sahədə rüşvət və korrupsiyanın at oynatmasına "yaşıl işıq" yandırmış sabiq nazirin də ədalət mühakiməsi qarşısında cavab verməsi qaçılmaz görünürdü. Elə onun uzun illər boyunca öz ailə şirkətini rəhbərlik etdiyi nazirlik tərəfindən maliyyələşdirməsi barədə faktlar kifayət edirdi ki, Əbülfəs müəllim bununla bağlı sorğu-sual edilsin...

***Sənan Mirzə***

# Azay Quliyev ATƏT PA-nın iclasında Türkiyəni müdafiə etdi



***Bu gün Stokholm şəhərində ATƏT Parlament Assambleyasının (PA) Büro iclası keçirilib.***

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən "Unikal"a verilən məlumata görə, iclasda Kiprdən olan vitse-prezident İrene Çaralambides çıxışında Avropada cərəyan edən miqrant probleminə toxunub.

Kirpin nümayəndəsi ölkəsinin və Yunanıstanın miqrant böhranının birbaşa təsiri altında olduğunu və problemin həlli üçün böyük vəsaitlərin sərf edildiyini bildirib. Çıxışının davamında o, miqrant probleminin daha effektiv həlli üçün Türkiyəyə verilən milyardlarla avro yardımın əvəzinə bu vəsaitin digər ölkələrə verilməsinə çağırış edib.

Milli Məclisin deputatı Azay Quliyev söz alaraq Kipr nümayəndəsinin qaldırdığı məsələyə etirazını bildirib və vurğulayıb ki, ölkələr arasında belə bir ayrı-seçkilik yolverilməzdir, eləcə də belə selektiv və ikili yanaşma tamamilə əsassızdır.

Azay Quliyev diqqətə çatdırıb ki, 4,5 milyon qaçqının sığındığı Türkiyəyə qarşı ədalətsiz yanaşmaya yol verilməməlidir. Bu ölkə son 10 ildə qaçqın problemlərinin həlli üçün 40 milyard dollar xərcləyib və bunu gözardı etmək olmaz. Azay Quliyev sonda ATƏT və Aİ ölkələrini bu əhəmiyyətli məsələdə Türkiyəni maddi baxımdan dəstəkləməyə və Türkiyənin üzərində olan bu ağır yükü bölüşməyə çağırıb.

# Prezidentin köməkçisi sərhəddəki son vəziyyətdən danışdı

***Azərbaycan-Ermənistan dövlət sərhədində vəziyyət sabit olaraq qiymətləndirilir.***

"Unikal" xəbər verir ki, bunu jurnalistlərə açıqlamasında Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezidentin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Ermənistan tərəfdən sərhəddə vəziyyətin gərgin olması ilə bağlı yayılan məlumatlara münasibət bildirərkən deyib.

Prezidentin köməkçisi qeyd edib ki, Azərbaycanın hərbi qulluqçuları ölkənin suveren ərazilərində xidmətlərini yerinə yetirirlər.

"Ermənistan mediasında kifayət qədər "fake news" xarakterli məlumatlar yayılır". Bunu Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev jurnalistlərə açıqlamasında bildirib.

O Azərbaycan media mənsublarına müraciət edib: "Ermənistan mediasına istinadları minimuma endirək. Çünki kifayət qədər saxta, yalan məlumatlar yayılır. Bu, Ermənistanın daxilində gedən proseslərlə bağlıdır. Ermənistanın öz daxilində müxtəlif daxili istehlak naminə və bu qəbildən olan məlumatlar atılmaqdadır".

# "SOCAR Petroleum"un baş direktoru dəyişib

***Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) ölkədə neft və neft məhsullarının topdan və pərakəndə satışı ilə məşğul olan "SOCAR Petroleum" QSC-yə yeni baş direktoru təyin edilib.***

"Report"un məlumatına görə, bu vəzifə Rövşən İmran oğlu Həsənova həvalə edilib. O, bu vəzifədə Toğrul Cavad oğlu Seyidovu əvəzləyib. Faktı "Unikal"a "SOCAR Petroleum" QSC-dən təsdiqləyiblər.

Qeyd edək ki, Rövşən Həsənov "Azərneftyağ" Neft Emalı Zavodunun direktoru vəzifəsində çalışıb.

Xatırladaq ki, "SOCAR Petroleum" QSC Azərbaycan ərazisində neft məhsullarının alqı-satqısının təşkil edilməsi və çoxsahəli nəqliyyat infrastrukturuna, beynəlxalq standartlara uyğun, keyfiyyətli təchizat xidmətinin həyata keçirilməsi məqsədilə 2008-ci ildə təsis edilib.

Şirkətin ilk yanacaqdoldurma məntəqəsi 2010-cu ilin mayın 7-də açılıb. Şirkətin 39 yanacaqdoldurma məntəqəsi və 11 neft məhsullarının saxlama terminalı, 1 sıxlaşdırılmış təbii qaz terminalı və 9 CNG stansiyası fəaliyyət göstərir. "SOCAR Petroleum"da 2 000 nəfərdən çox işçi çalışır.

## UNESCO-nun iclasında Ermənistanın təxribatına cavab verilib

***Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Azad Cəfərlinin rəhbərlik etdiyi nümayəndə heyəti Fransada səfərdədir.***

Dövlət Xidmətindən “Unikal”a bildirilib ki, səfərin məqsədi 29 noyabr - 3 dekabr tarixlərində baş tutan UNESCO-nun “Silahlı münaqişə zamanı mədəni sərvətlərin qorunması haqqında” 1954-cü il tarixli Haaqa Konvensiyasına tərəf dövlətlərin 14-cü iclasında, Haaqa Konvensiyasının İkinci Protokoluna tərəf dövlətlərin 9-cu iclasında, eyni zamanda Silahlı münaqişə zamanı mədəni sərvətlərin qorunması üzrə Komitənin 16-cı iclasında iştirak etməkdir.

Tədbirlər çərçivəsində “Silahlı münaqişə zamanı mədəni sərvətlərin qorunması haqqında” 1954-cü il tarixli Haaqa Konvensiyasının implementasiya ilə bağlı məsələlər, əməkdaşlıq istiqamətləri, Konvensiyasının icrası barədə milli hesabatların təqdim edilməsi, həmçinin İkinci Protokolun implementasiyası, yeni dövlətlərin ratifikasiyası və qoşulması, İkinci Protokolun icrası üzrə hesabatların təqdim edilməsi və eləcə də Büro üzvlərinin müəyyən edilməsi kimi məsələlərin müzakirəsi nəzərdə tutulur.

Noyabrın 29-da keçirilən Konvensiyaya tərəf dövlətlərin 14-cü iclası zamanı Konvensiyanın icrası ilə bağlı hesabatın müzakirəsi zamanı Dövlət Xidmətinin rəisi Azad Cəfərli çıxış edib. Konvensiyanın vacibliyindən danışaraq, işğaldan azad olunmuş ərazilərimizdəki abidələrin vəziyyəti ilə bağlı məlumat verib, bu istiqamətdə UNESCO Texniki Missiyasının önəmini qeyd edib.

İclas zamanı Ermənistan tərəfinin təxribat xarakterli çıxışlarına müvafiq olaraq, adekvat cavablar verilib və Ermənistan nümayəndə heyətinin iclası siyasiləşdirməsinin yolverilməzliyi diqqətə çatdırılıb.

Mədəniyyət Nazirliyinin nümayəndə heyətinin həmçinin ikinci Protokola tərəf dövlətlərin 9-cu iclası, eləcə də ikinci Protokolun Komitə iclasında iştirakı nəzərdə tutulur.

## Qarabağda yeni idarəetmə formalaşır

***Prezidentin sərəncamı ilə Emin Hüseynov Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi təyin edilib.***

Bu sərəncamın yerli idarəetmədə yeni yanaşmanın tətbiq edilməsi kimi qiymətləndirən Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramov Modern.az-a deyib ki, iqtisadi rayon üzrə prezidentin xüsusi nümayəndəsinin təyin edilməsi yerli idarəetmədə yeni modelin tətbiqindən xəbər verir:

“Ölkə Prezidentinin 7 iyul 2021-ci il tarixli sərəncamı ilə Azərbaycanda 14 iqtisadi rayon formalaşdırılıb. Həmin tarixədək 10 iqtisadi rayon təsnifləşdirilmişdi. Mövcud iqtisadi rayonların ikisi işğaldan azad olunan ərazilərimizdə yaradılıb”.

Deputat deyib ki, yeni modelin digər regionlarımıza da transfer olunacağı bildirilmişdi: “Bögələrdə biznesin inkişafı, daha çox sərmayələrin cəlb edilməsi üçün institutsional islahatlar vacib şərtlərdən hesab olunur. Artıq işğaldan azad olunan ərazilərimizdə yerli idarəetmədə yeni modelin formalaşdırılır və bu yeni stuktur islahatların başlanğıcı kimi də xarakterizə oluna bilər”.

## ABŞ Dövlət katibi Lavrovla görüşəcək

***ABŞ Dövlət katibi Entoni Blinken Rusiya xarici işlər naziri Sergey Lavrovla görüşəcək.***

“Unikal” xəbər verir ki, görüş ATƏT XİN Şurasının İsveçin paytaxtı Stokholmda keçirlən iclası çərçivəsində baş tutacaq.

ABŞ dövlət katibi Lavrovla görüşdən əvvəl Ukrayna xarici işlər naziri Dmitri Kuleba ilə bəzi mövzuları müzakirə edəcək.

## Xocavənddə ermənilərin atıb qaçdığı silah-sursat aşkarlandı

***İşğaldan azad edilmiş ərazilərin mina və digər partlayıcı vasitələrdən təmizlənməsi, erməni hərbi birləşmələrinin geri çəkilərkən atdıqları silah-sursatın yığılması üçün aidiyyəti dövlət qurumlarının təmsilçiləri, o cümlədən daxili işlər orqanlarının əməkdaşları tərəfindən fasiləsiz zəruri tədbirlər yerinə yetirilir.***

DİN-in Mətbuat Xidmətinin Bərdə regional qrupundan verilən məlumata görə, Xocavənd Rayon Polis Şöbəsinin əməkdaşları rayon ərazisində keçirdikləri növbəti nəzarət-profilaktiki tədbirlər nəticəsində erməni hərbi birləşmələrinin tərk etdiyi mövqelərdən müxtəlif silah-sursat aşkar ediblər.

Polis əməkdaşları 7 avtomat, 3 qumbaraatan, 3 pulemyot, 7 qumbaraatan mərmisi, 8 əl qumbarası, 4 partladıcı vasitə, 3 sandıq, 5435 müxtəlif çaplı patronlar və digər döyüş sursatı götürərək aidiyyəti üzrə təhvil veriblər.

# Tağı Əhmədovun hotel müəmması...

### Sabiq "metro şefi"nin maliyyə problemi ucbatından yarımçıq saxladığı obyekt hazırda kimindir?



***Bakı Metropoliteninin sabiq rəisi Tağı Əhmədovun ölkənin qərb bölgəsində, konkret olaraq Ağstafa rayonunda bəzi biznes obyektlərinin olması barədə məlumatlar ölkə mətbuatında hələ uzun illər əvvəl yayılmışdı. O vaxt bildirilirdi ki, Tağı müəllim rayon mərkəzinə yaxın yerdə “Sezar” adlı böyük bir restoran-şadlıq sarayı tikdirib. 2009-cu ildə istifadəyə verildiyi deyilən həmin şadlıq sarayının 600-1000 nəfər arası adam tutduğu bildirilirdi. ”Rayondakı digər şadlıq evlərindən fərqli olaraq “Sezar”da toy sahibinə kənardan ət və ya digər ərzaq məhsulları gətirməyə icazə verilmir. Halbuki digər şadlıq evlərində toy etmək istəyənlər ərzağı özləri də ala bilər. “Sezar”da isə bir stulun minimum qiyməti 25 manatdır. Bu məbləğ isə kasıb rayon əhalisi üçün ciddi rəqəmdir” deyə o zaman medianın yazdıqlarında vurğulanırdı.***

Əslən Naxçıvandan olan T.Əhmədovu Ağstafaya bağlayan səbəb isə onun həyat yoldaşının adıçəkilən rayondan olması göstərilirdi.

Qeyd edək ki, Tağı Əhmədovun Ağstafada böyük bir hotel inşa etdirməyə başladığı barədə də illər öncə məlumat yayılmışdı. Bildirilirdi ki, o, bu rayonun həmin vaxtkı icra başçısı Cümşüd Musayevlə dostluq əlaqələrinə malik imiş. Onları biznes maraqları birləşdirib. İddialara görə, hər iki eks məmur “Həsənsu” restoranının yanında şərikli hotel və istirahət mərkəzi tikdirmək qərarına gəliblər. Lakin sonradan hotelin tikintisi maliyyə problemləri səbəbindən dayandırılıb.

Ağstafadakı qaynaqların bildirdiyinə görə, sözügedən obyektin inşası bir müddət sonra davam etdirilib. Hazırda hotelin və istirahət mərkəzinin fəaliyyət göstərdiyi vurğulanır. Lakin onun yenə də Tağı müəllimə məxsus olub-olmadığı bəlli deyil. Mümkündür ki, hotelin inşasını o özü başa çatdırıb, hazırda da elə özü idarə eləyir. O da mümkündür ki, ya tikinti prosesinin gedişində, ya da istifadəyə verildikdən sonra bu obyekti zorən, yaxud könüllü satıb.

Yeri gəlmişkən, sabiq ”metro şefi”nin hotel biznesinə marağı ”MTN işi”ndən məlumdur. Belə ki, məhkəmə zamanı onun “Sahil” metrosunun üstündəki binada 4 mənzil, “Yeni Həyat” yaşayış kompleksində 4 mənzil, Neft Akademiyasının əsas korpusu ilə üzbəüz 7-8 dükan, Bakıda 6-7 bağ evi, Yasamal rayon məhkəməsinin yeni binasının arxasındakı “Kolizey” və “Şəhrizad” restoranları ilə yanaşı Dubayda elit yaşayış kompleksində yerləşən otelinin olması da ortaya çıxmışdı. İddia edilirdi ki, o, Xarici İşlər Nazirliyində işləyən oğlu vasitəsilə milyonlarla dolları ofşor hesablara yönəldib, Dubaydakı oteli və ticarət mərkəzini də elə həmin pulların bir qismi ilə alıb.

Qeyd edək ki, Tağı müəllim büdcə pullarını mənimsədiyi və bunun hesabına şəxsi biznes qurduğu barədə iddiaları yalanlayır. Bir müddət əvvəl o, ölkə telekanallarından birinə müsahibəsində demişdi ki, baş olan yerdə şəxsi qazanc olur: ”Gərək başınla işləyəsən. Heç nəyi gizlətmirəm. ”Xətai” stansiyasının yanında 21 mərtəbəli bina var. Məndən gəlib icazəsini alan adama dedim ki, bunu işləyib sizə verəcəm, amma haqqı budur (?! - red)”. Sonra isə əlavə eləmişdi: ”Ay camaat, mən 3640 manat pensiya alıram, 1000 AZN YAP-dan alıram, 1500 manat da kafedra müdiri olduğum üçün oradan alıram. Öz vicdanıma and içirəm ki, dövlətdən bir manat da olsun götürməmişəm”.

Lakin cəmiyyətə qaranlıq qalmışdı ki, ”başını işlədib qazanmaq”la, yaxud ”dövlətdən bir manat da olsun götürmədiyinə” and içməklə ”haqqı budur” sözlərinin nə əlaqəsi var?!

Sonda onu da xatırladaq ki, Tağı Əhmədov kifayət qədər uzun müddətdə - 1998 - 2014-cü illərdə Bakı Metropoliteninə rəhbərlik edib. Həmin dövr ərzində o, cəmiyyətin və medianın ən çox tənqid elədiyi məmurlar sırasında yer alırdı. Belə ki, Tağı müəllim metropolitenin gəlirlərindən, bu quruma ayrılan dövlət vəsaitlərindən tutmuş metro ərazisindəki köşklərdən toplanan icarə haqlarınadək bir çox istiqamətdə pulların mənimsənilməsində günahlandırılırdı.

Sonuncu dəfə isə onun adı sələm qalmaqalında hallanıb. Tağı müəllimin 2 milyon manat pulu mərmər biznesi ilə məşğul olan şəxslərə faizlə pul verdiyi, hətta qarşı tərəf ödənişi gecikdirdiyi üçün zor tətbiq elədiyi iddia olunub. Məsələ məhkəməyədək gedib çıxıb və geniş ictimai rezonans doğurub...

***Toğrul Əliyev***

# İsmayıl İsmayılovu gözləyən çətin günlər...

## Sabiq nazir müavini niyə həyəcan içindədir?

***2006-cı ildə Azərbaycan Respublikası Gənclər və İdman Nazirinin müavini vəzifəsinə təyin edilən İsmayıl İsmayılov bu vəzifəni 15 il tutduqdan sonra yola salmaq üzrə olduğumuz həftə vəzifəsindən azad edildi. İsmayılov bununla bağlı mətbuata açıqlamasında qərarın onun üçün gözlənilməz olduğunu deyib və ardınca hakimiyyətə sadiqliyini vurğulamaq ehtiyacı hiss edib. Belə bir ehtiyacın ortaya çıxması isə qətiyyən təsadüfi deyil. Məsələ burasındadır ki, uzun müddətdir mətbuatda İsmayıl İsmayılovun fəaliyyətində ciddi nöqsanlara yol verdiyi barədə iddialar dolaşır. Sabiq nazir müavini tərəfindən indiyədək təkzib edilməyən həmin iddialara görə, o, vəzifədə olarkən özünə dəbdəbəli həyat və geniş biznes şəbəkəsi qurmağa nail olub.***



İsmayılovun paytaxt Bakının "milyonçular məhəlləsi" kimi tanınan Teymur Əliyev küçəsində, eləcə də digər mərkəzi yerlərdə mənzillərinin, dənizkənarı ərazidə çoxmilyonluq mülkünün varlığından bəhs edən qaynaqların iddiasına görə, bunun əvəzində, məsələn, külli miqdarda vəsaitin ayrılmasına baxmayaraq Gəncə şəhərindəki olimpiya idman kompleksinin inşası yubanır. Belədə isə sual ortaya çıxır: nə üçün? Yoxsa həmin idman qurğusu üçün nəzərdə tutulan pulların bir hissəsi kirli maraqlara qurban gedib?! Axı Gənclər və İdman Nazirinin 1-ci müavini olaraq kompleksin inşası İsmyılovun birbaşa nəzarətindədir.

Yeri gəlmişkən, İ.İsmayılovun tikinti biznesinin varlığı kimsəyə sirr deyil. Onun bu işləri Akif adlı qudası ilə birgə həyata keçirdiyi, vəzifəsinin verdiyi imkanlardan yararlanaraq hətta nazirliyin bir çox tikinti layihələrini də öz şirkətlərinə gördürdüyü barədə məlumatlar dolaşır. Gəncədə təhvil verilməsi yubanan olimpiya idman kompleksi ilə bağlı müəmma da məhz bu kontekstdə ayrıca maraq doğurur.

Başqa bir iddia ondan ibarətdir ki, İsmayıl İsmayılovun kurasiya etdiyi idman qurğularının əksəriyyəti sözün həqiqi mənasında korrupsiya mənbəyinə çevrilib. Məsələn, bölgələrdəki olimpiya idman komplekslərinin saxlanılması üçün tələb olunan büdcə şişirdilir, bu da azmış kimi, dövlətin ayırdığı vəsaitlərin 25-30 faizi geri qayıdır və faktiki olaraq İ.İsmayılovun cibinə gedir. Üstəlik, GİN-in yerli idarələri də uzun müddət ərzində sabiq nazir müavininin nəzarətində olub və oxşar hal həmin idarələrlə bağlı da yaşanıb. Əvəzində isə olimpiya idman komplekslərinin əksəriyyətinin fəaliyyəti tamamilə iflic vəziyyətindədir, təyinatından kənar fəaliyyət göstərir və bəziləri üçün gəlir rolunu oynayır.

Onu da deyək ki, İ.İsmayılov eyni zamanda Azərbaycan Ağır Atletika Federasiyasının (AAAF) I vitse-prezidenti postunu tutub. Cahangir Əsgərovun rəhbəri olduğu federasiyanı faktiki olaraq, o, idarə edib. Lakin AAAF-da da çoxsaylı problemlər yaşanıb. Belə ki, ağır atletlərimizin bəzilərində dopinq tapılıb və bu onların cəzalandırılmasına, beynəlxalq yarışlardan kənarda qalmasına gətirib çıxarıb. Bundan başqa, federasiyada maliyyə məsələlərində şəffaflıq təmin edilməyib, müxtəlif istiqamətlər üçün ayrılan vəsaitlərin şəffaf, təyinatı üzrə, effektiv xərclənməsi baxımından daim problemlər yaşanıb. Ümumiyyətlə, İ.İsmayılov adıçəkilən qurumun fəaliyyətini düzgün qurmaqda çətinlik çəkib.

Nəticədə iş o yerə çatıb ki, bu ilin avqustunda federasiya prezidenti Cahangir Əsgərov AAAF-ın tamamilə yenidən təşkil olunması barədə əmr imzalayıb. Əmrə əsasən, həmçinin baş məşqçi Asif Məmmədov və baş katib Rizvan Rəsulov federasiyada tutduqları vəzifələrdən kənarlaşdırılıblar (lakin qəribədir ki, federasiyanın rəsmi saytında - aaaf.az-da o hələ də baş katib olaraq göstərilir...). Yenidən təşkil haqqında qərar federasiyanın vəzifəli şəxslərinin xidməti vəzifələrini keyfiyyətsiz yerinə yetirməsi ilə əlaqədar qəbul edilib. Rəhbərliyin vəziyyətin yaxşılaşdırılması ilə bağlı çoxsaylı tapşırıqlarına baxmayaraq, əməkdaşlar öz işlərinə səhlənkar yanaşmağa davam ediblər.

Federasiya işçilərinin məsuliyyətsiz münasibəti, eləcə də idmançılarımızın antidopinq qaydalarına məhəl qoymaması Beynəlxalq Ağır Atletika Federasiyası tərəfindən ciddi cərimə sanksiyalarının tətbiq edilməsinə səbəb olub. Təkcə son dövrdə Beynəlxalq və Avropa Ağır Atletika Federasiyaları tərəfindən altı dəfə Azərbaycanın ağırlıqqaldıranlarının dopinqdən istifadə halları qeydə alınıb.

Bütün bunlar isə Cahangir Əsgərovu federasiyanın fəaliyyəti ilə bağlı radikal addımlar atmağa məcbur edib.

Yuxarıda yazılanları ümumiləşdirdikdə İsmayıl İsmayılovun Gənclər və İdman Nazirinin müavini vəzifəsindən azad edilməsi təəccüblü görünmür. Elə onun bu qərardan əndişəli olmasının səbəbi də yaxşı anlaşılır. Ehtimal etmək olar ki, eks müavin fəaliyyətinin təftiş olunacağından və bunun yaxşı nəticələr verməyəcəyindən narahatdır...

***Toğrul Əliyev***

# Növbəti həftələrdə ənənəvi tədris tam bərpa oluna bilər - Nazir

***"Azərbaycanda tədris ili başlayandan, sentyabrın 22-dən indiyə qədər 62 məktəb distant təhsilə keçib. Onlardan təxminən 10-a yaxını hazırda distant təhsildədir, əksəriyyəti ənənəvi tədrisə geri qayıdıb".***

"Unikal" xəbər verir ki, bu fikirləri təhsil naziri Emin Əmrullayev jurnalistlərə açıqlamasında deyib.

Onun sözlərinə görə, vəziyyət belə davam edərsə, növbəti həftələrdə də tədrisin distant formada keçirilməsinə ehtiyac olmayacaq:

"Xatırladım ki, Təhsil Nazirliyi aidiyyəti qurumlarla birgə mütəmadi şəkildə məktəblərdə yoluxma ilə bağlı vəziyyəti izləyir və məsələni nəzarətdə saxlayır. Son həftələrdə müəyyən qədər yoluxmalarda sabitlik yaranıb". Nazir bildirib ki, hazırki dövrdə daha az məktəb və sinif distant təhsilə keçir, çünki yoluxma sayı aşağı olur: "Amma pandemiya hələ davam edir. Ölkə üzrə hər gün 1500-2000-ə yaxın yoluxma olur. Bunlar da yəqin ki, ölkədə vaksinasiya prosesinin getməsi ilə əlaqəlidir. Xüsusilə də təhsil işçilərinin 90 faizindən çoxunun vaksinasiya olunması ilə təhsilin davamlılığını saxlaya bilirik".

# Bu dövlət qurumlarına yeni səlahiyyət verildi

***Nazirlər Kabinetinin "İnsan alveri qurbanlarının repatriasiya Qaydaları"nda dəyişiklik edilib.***

"Unikal" xəbər verir ki, bununla bağlı Baş nazir Əli Əsədov qərar imzalayıb.

Belə ki, dəyişikliklə qaydaya yeni bənd əlavə edilib.

Yeni bəndə əsasən, Daxili İşlər Nazirliyi və Dövlət Miqrasiya Xidməti tərəfindən şəxsin gələcəkdə yenidən qurban olmaq riskinin qiymətləndirilməsi və qarşısının alınması istiqamətində preventiv tədbirlər görüləcək.

# Fuad Muradov Britaniyada səfərdədir

***Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradovun Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığına səfəri başlayıb.***

"Unikal" xəbər verir ki, səfər çərçivəsində Komitə sədri London, Mançester, Aberdin və ətraf şəhərlərdə yaşayan Azərbaycan icmalarının üzvləri, Azərbaycan diaspor təşkilatlarının Koordinasiya şuralarının nümayəndələri ilə görüşəcəklər. Bununla yanaşı, Azərbaycana dost ölkələrin Birləşmiş Krallıqdakı icmalarının üzvləri ilə görüşlər planlaşdırılır. Proqramda Böyük Britaniya rəsmiləri ilə görüşlər də nəzərdə tutulub.

# Müdafiə Nazirliyi 13177 hektar ərazini minalardan təmizləyib

***Noyabrın 22-dən dekabrın 2-dək yalnız Tərtər-Goranboy rayonları istiqamətində yeni yolların çəkilməsi zamanı qarşı tərəfdən qurulmuş Ermənistan istehsalı olan 537 ədəd piyada əleyhinə, 101 ədəd tank əleyhinə mina aşkar edilərək zərərsizləşdirilib.***

Bu barədə "Unikal"a Müdafiə Nazirliyindən məlumat verilib.

İşğaldan azad olunmuş ərazilərimizdə mühəndis-istehkam bölmələri tərəfindən bu günədək ümumilikdə 13177 hektar ərazi minalardan təmizlənib, 616 kilometr yol çəkilib, 16860 mina və partlamamış döyüş sursatı aşkar olunaraq məhv edilib.

# "ABŞ "demokratiya mayakı" olduğunu iddia edə bilməz" - Rusiya XİN

***"ABŞ və onun çoxsaylı problemləri olan daxili müttəfiqləri "demokratiya mayakı" olduqlarını iddia edə bilməzlər və etməməlidirlər".***

"Unikal" xəbər verir ki, bunu Rusiya Xarici İşlər Nazirliyi bildirib. Nazirlik ABŞ-ın qarşıdan gələn "demokratiya sammitini" şərh edərkən bildirib ki, Qərb ölkələrində söz azadlığı, seçki idarəçiliyi, korrupsiya və insan haqları ilə bağlı bir çox "xroniki problemlər" var.

"Biz bütün xarici tərəfdaşları "demokratikləşmə" ilə məşğul olmamağa, yeni ayırıcı xətlər çəkməməyə, beynəlxalq hüquq normalarına riayət etməyə qayıtmağa və BMT Nizamnaməsində təsbit olunmuş dövlətlərin suveren bərabərlik prinsipini praktikada tanımağa çağırırıq", - deyə Rusiya XİN qeyd edib.

***Ağarza Elçinoğlu***

# Azərbaycanın gizli milyonçuları barədə şok faktlar...

## Köhnə - təzə sual: milyonluq villaların, avtomobillərin satıldığı ölkəmizdə niyə rəsmi milyonçu yoxdur?

***Elan saytlarında Bakıda və Bakıətrafı qəsəbələrdə, kəndlərdə, eləcə də turizm baxımından əlverişli bölgələrdə satışa çıxarılan bahalı villalara tez-tez rast gəlinir. Hətta paytaxtda milyonerlər məhəlləsi kimi tanınan ünvanlar (məsələn, Nərimanov rayonunun Həsən Əliyev küçəsi) var.***

Bundan başqa, Batamdarda, Mərdəkan, Bilgəh, Şüvəlan və digər dənizə yaxın olan yerlərdə satış qiyməti ən azı 1,5 - 2 milyon manatdan başlayan mülklər barədə saysız-hesabsız elanlar oxuya bilərsiniz. Bəs haqqında danışılan lüks imarətlərin sahibləri kimlərdir? Əlbəttə, satış elanları əsasında bu çox dəbdəbəli və bahalı imarətlərin sahiblərinin kimliyini müəyyənləşdirmək çətin deyil, baxmayaraq ki, təxmin etmək asanlıqla mümkündür. Onlar ya hansısa iri və ya orta məmura məxsusdurlar, ya da belə məmurların himayəsindəki iş adamlarına...

İstər-istəməz sual yaranır: son vaxtlar Azərbaycanda qiyməti bir neçə, bəzən on milyonlarla manatla müəyyənləşdirilən imarətlərin satışının yenidən geniş vüsət almasının səbəbi nə ola bilər? Üstəlik, belə fantastik dəyərə malik imarətlərə alıcı tapmağın müşkül məsələ olduğunu əmlak ekspertləri də təsdiqləyir. Bu zaman adamı maraq bürüyür: həmin dəbdəbəli villalara alıcı necə və hardan tapılır?

Həmçinin o da maraqlıdır ki niyə sözügedən imarətlərin satışa çıxarılması xüsusilə iri məmurların "vurulmağa" başladığı ərəfələrdə və ya günlərdə daha da vüsət alır? Doğrudanmı, sözügedən iki faktor arasında heç bir bağlılıq yoxdur?! Digər tərəfdən koronavirusun yaratdığı fəsadlar, özəlliklə də xüsusi karantin rejimi şəraitində biznes sahələrində yaşanan durğunluq və əvvəlki gəlir imkanlarının kəskin azalması da hazırda bahalı villaların satışa çıxarılmasını şərtləndirə bilər. Çünki belə lüks imarətlərin bir çoxu onların sahiblərinin sayca bir neçə mülkündən biridir, onların bəzilərində heç yaşayış yoxdur, deməli saxlanılması əlavə xərcdir...

Əsas sual isə, şübhəsiz, tamamilə başqadır: Azərbaycanda bir nəfər də rəsmi milyonçu olmadığı halda, dəyəri milyonlarla ölçülən bu mülklər necə inşa edilib, onlara müştəri hələ də necə tapılır? Söhbət yalnız villalardan da getmir. Biz bəzən hansısa məmur övladının yarım milyon, yaxud 1 milyon manatlıq avtomobillər sürməsi, ya da bir neçə milyon manatlıq biznes obyekti açdığı barədə xəbərlər oxuyuruq. Yaxşı, həmin milyonların qaynağı haradandır, görəsən?! O da bir həqiqətdir ki, yuxarıdakı sual ətrafında baş sındırmadığımız, ona cavab tapmadığımız müddətdə isə ölkədə korrupsiyanın azalmasından, yaxud tamamilə ləğvindən danışmaq çox tezdir...

Və gələk daha bir vacib nüansa: bu günlərdə media yazıb ki, son 1 ildə dünyanın ən varlı adamlarının sərvətlərinin həcmi 5 trilyon dollara qədər artıb. BMT-nin Baş katibi Antoni Quterreş bu faktı açıqlayaraq, həmin varlıların vergi yükünü artırmaqla əldə olunan vəsaitləri qeyri-bərabərliyin aradan qaldırılmasına sərf olunmasını təklif edib.

Bundan başqa, cari ilin aprelində ABŞ prezidenti Co Bayden Senat və Nümayəndələr Palatasına müraciətində pandemiya dövründə varlanan və illik gəliri 400 min dollardan yuxarı olan amerikalılar üçün vergiləri artırmağa çağırıb. Sentyabrda isə Bayden iri korporasiyalar və varlı amerikalıları bir sıra hallarda milyardlarla dollar vergidən yayındıqlarına görə kəskin tənqid edib. ABŞ Maliyyə Nazirliyinin hesablamalarına görə hər il 1 faiz varlı amerikalı 163 milyard dollar vergini ödəməkdən yayınır. Müzakirələr zamanı Nümayəndələr palatasında demokratlar korporativ verginin 21 faizdən 26,5 faizə, kapital artımına hesablanan gəlir verginin isə 20 faizdən 25 faizə qaldırılmasını təklif ediblər.

Rusiyada isə bu ilin yanvarından illik gəliri 5 milyon rubldan yuxarı olan vətəndaşlar üçün gəlir vergisi 13 faizdən 15 faizə qaldırılıb.

Göründüyü kimi, bütün dünyada pandemiyadan qazanan varlıların vergi yükü artırılır. Dövlətlər bu gəlir mənbəyinə postpandemiya dövründəki bərpanın əsas maliyyə mənbələrindən biri kimi baxır.

Bizdə isə xüsusilə işğaldan azad edilmiş ərazilərin bərpası üçün dövlət böyük vəsaitlər xərcləyir. Belə bir vəziyyətdə gəlir deklarasiyası barədə qanunvericilik tələblərinə əməl edilməsi xüsusi əhəmiyyət kəsb edir. Yalnız bu halda büdcə vəsaitləri üzərində şəffaflığı daha çox təmin eləmək, vergidən yayınmanın önünə keçmək və birilərinin qanunsuz yollarla varlanmasının qarşısını almaq mümkündür. Nəticədə xəzinə gəlirlərinin daha da artması, deməli, işğaldan azad edilmiş ərazilərin bərpası üçün əlavə qaynaqlar yaradılması tamamilə realdır.

Qısası, uzun illərdən bəridir cəmiyyətin, medianın dilə gətirdiyi bir suala dəqiq, konkret cavab tapmaq zamanıdır: milyonluq mülklərə, avtomobil kolleksiyalarına, biznes obyektlərinə sahib bu qədər insanın olduğu ölkədə niyə hələ də bir nəfər də olsun rəsmi milyonçu yoxdur?!

***Sənan Mirzə***

# "Paylayıcı sistemlərdə itkilərin azaldılması əsas hədəflərdəndir" - Nazir

***Azərbaycanın Mərkəzi Asiya Regional İqtisadi Əməkdaşlıq (CAREC) Proqramına sədrliyi ilə videokonfrans formatında V "Enerji İnvestisiya Forumu" keçirilib. Tədbirdə 11 üzv ölkə, Proqrama dəstək verən və tərəfdaş qismində çıxış edən beynəlxalq təşkilatlar təmsil olunub.***

"Unikal" xəbər verir ki, Forumun açılış mərasimində çıxış edən energetika naziri Pərviz Şahbazov CAREC Proqramını iyirmi ildir böyük bir coğrafi ərazidə müxtəlif sahələr üzrə qarşılıqlı-faydalı əlaqələri təmin və təşviq edərək regionun inkişafına töhfə verən əməkdaşlıq formatı kimi qiymətləndirib. 2021-ci ildə CAREC-ə sədrliyin ölkəmiz üçün tarixi bir dövrdə gerçəkləşdiyini vurğulayan nazir bildirib ki, Azərbaycan hazırda dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə Qarabağ və Şərqi Zəngəzurun bərpası və reinteqrasiyası ilə bərabər təhlükəsiz və genişmiqyaslı əməkdaşlıq məkanının yaradılması istiqamətində kommunikasiyaların açılmasını, yeni nəqliyyat dəhlizinin yaradılmasını əhatə edən proseslər həyata keçirir. Həmçinin azad edilmiş əraziləri "yaşıl enerji "zonasına çevirəcəyini ali səviyyədə elan edib. Ölkəmizin regional əməkdaşlığın dərinləşdirilməsi və qlobal iqlim dəyişikliyi probleminin həllinə dəstəyini əks etdirən bu cür konstruktiv mövqeyi regionun gələcək enerji arxitekturası üçün də güclü əsasdır.




Energetika naziri enerji ilə bağlı qlobal tendensiyalardan bəhs edərkən hazırkı enerji böhranın təsirlərinə də diqqət yetirib. Bildirilib ki, karbohidrogenlərsiz gələcəyə doğru sərt və tələsik siyasi ritorikaları, enerji resurslarına münasibətdə tarazlı yanaşma, enerji təhlükəsizliyi ilə ekoloji təhlükəsizlik arasında balanslaşmanı təmin edən real, düşünülmüş addımlar əvəz etməlidir. Yalnız bir enerji resursundan asılı enerji təchizatının dayanıqlığı qeyri-realdır. Biz bərpa olunan enerji, hidrogen ilə bağlı iddialı plan və hədəflərimizi reallaşdırarkən "xalis sıfır" emissiyaya aparan digər yollardan - innovativ texnologiyaların imkanlarından, xüsusilə enerji səmərəliliyindən faydalanmalıyıq.

Energetika naziri enerji səmərəliliyinin karbon emissiyalarını azaltmaq üçün ən sürətli və rentabelli həlləri özündə birləşdirdiyini, enerji ehtiyaclarını ödəmək üçün ən təmiz və əksər hallarda ən ucuz yolu təmsil etdiyini vurğulayıb: "Ən yaxşı enerji qənaət edilmiş enerjidir. Enerji səmərəliliyində irəliləyişlər ekoloji, iqtisadi və sosial faydalarla nəticələnir ki, bu da hər bir ölkənin bu prosesə cəlbi üçün əsas faktorlardır. Bu il qəbul olunan "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Qanun ölkəmizdə səmərəliliyin energetika sektoru daxil olmaqla iqtisadiyyatın müxtəlif istiqamətlərinə və ev təsərrüfatlarına müsbət təsirinə yol açacaqdır. Qarşıdakı illərdə enerji təchizatı və enerji istehlakı sahələrində enerjiyə yüksək səviyyədə qənaət edilməsi, ötürücü və paylayıcı sistemlərdə itkilərin isə müvafiq olaraq 2% və 8%-dək azaldılması əsas hədəflərimizdəndir. Biz gələcəyimizi "təmiz ətraf mühit"ə malik "yaşıl artım" ölkəsinə çevrilməkdə görürük".

Qeyd edilib ki, enerji səmərəliliyi ilə bağlı prosesin sürəti siyasi dəstəklə bərabər maliyyələşmə ilə bağlıdır. Beynəlxalq Enerji Agentliyinin hesablamalarına görə, 2050-ci ilə qədər "xalis sıfır emissiya"ya nail olmaq üçün dünyada enerji səmərəliliyinə ümumi illik investisiya 2030-cu ilə qədər üç dəfə artırılmalıdır.

Asiya İnkişaf Bankının vitse-prezidenti Shixin Chen isə bildirib ki, 2021-ci ildə Azərbaycanın Mərkəzi Asiya Regional İqtisadi Əməkdaşlıq Proqramına (CAREC) sədrliyi digər məsələlərlə yanaşı, regionda enerji səmərəliliyi üzrə ilk regional maarifləndirmə kampaniyasına uğurla start verib: "Azərbaycanın rəhbərliyi ilə CAREC enerji cəmiyyəti də yaşıl enerji üzrə CAREC Yaşıl Enerji İttifaqının konsepsiyasının işlənib hazırlanmasına başlayıb. Bu İttifaq tezliklə investisiyalara hazır olan yaşıl layihələri müvafiq maliyyəçilərlə əlaqələndirmək üçün platforma yaradacaq".

Onun sözlərinə görə, enerji səmərəliliyindəki qlobal tərəqqi son on il ərzində zəifləyərək, dünyada, təxminən, 1%-ə qədər olub. Növbəti 10 il ərzində CAREC regionunda təkcə enerji infrastrukturuna, təxminən, 400 milyard dollar sərmayə qoyulmalıdır.

Asiya İnkişaf Bankının baş direktoru Suzanne Gaboury isə Enerji İnvestisiya Forumunun CAREC regionuna özəl investisiyaların cəlbini sürətləndirəcəyinə inamını ifadə edib: "Enerji səmərəliliyinin digər təmiz texnologiyaların tətbiqindən açıq şəkildə geri qaldığını müşahidə edirik. Enerji səmərəliliyinə cari qlobal investisiyalar ildə, təxminən, 240 milyard dollar təşkil edir və bərpa olunan enerji sahəsinə qoyulan investisiyalardan xeyli geri qalır. Enerji səmərəliliyi yalnız energetika sektorunu əhatə etmir, enerji səmərəliliyinin demək olar ki, iqtisadiyyatın bütün sahələri ilə əlaqəsi var, o cümlədən nəqliyyat, binalar və sənaye də bu sahələrə aiddir. Ona görə də bu prosesdə sərmayələr vacibdir"

Forumda enerji səmərəliliyinə nail olmaq üçün mümkün vasitələr, elektroenergetikada enerji səmərəliliyinin rolu, maliyyə mexanizmləri, enerji səmərəliliyi baxımından yeni texnologiyaların tətbiqinə dair məruzələr edilib. Startaplar nümayiş etdirilib. Qeyd olunub ki, bu onillikdə regionda etibarlı, dayanıqlı və səmərəli enerji bazarının formalaşdırılması ilə enerji səmərəliliyi səviyyəsinin iki dəfə artırılması CAREC Proqramının 2030-cu ilədək enerji strategiyasında əsas hədəflərdəndir. Bu hədəfə səyləri gücləndirmək və Asiya İnkişaf Bankı ilə yanaşı digər maliyyə qurumlarının dəstəkləri ilə nail oluna bilər.

Xatırladaq ki, Azərbaycan Mərkəzi Asiya Regional İqtisadi Əməkdaşlıq (CAREC) Proqramında 2003-cü ildən iştirak edir.

## Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Sığınacağa sığınan gələcəyimiz - Onlar da məişət zorakılığının hədəfinə çevrilib



***Güllü (adı şərtidir) iki aydan çoxdur ki, iki körpəsi ilə Təmiz Dünya Qadınlara Yardım İctimai Birliyinin məişət zorakılığı qurbanları üçün sığınacağında yaşayır. İki azyaşlı uşaqla sığınacaqda yaşamaq çətin olsa da, Güllü buna məcburdur. Çünki, sığınacaqdan başqa qalmağa yeri yoxdur.***

Bu gün Azərbaycanda Güllü kimi yüzlərlə qadın Təmiz Dünya Qadınlara Yardım İctimai Birliyinin məişət zorakılığı qurbanları üçün sığınacağına sığınıb. Onlar BMT Baş Məclisinin 1999-cu il noyabrın 25-i Qadın Zorakılığına qarşı Beynəlxalq Mübarizə Gününü də məhz bu sığınacaqda qeyd edirlər...

Ölkəmizdə qadınlara qarşı zorakılıqla mübarizə tədbirləri "Azərbaycanda 2020-2023-cü illər üçün məişət zorakılığına qarşı mübarizə üzrə Milli Fəaliyyət Planı" çərçivəsində həyata keçirilsə də, qadınları zorakılığın caynağından xilas etmək mümkün olmayıb. Təmiz Dünya Qadınlara Yardım İctimai Birliyinin sədri Mehriban Zeynalova bildirir ki, hazırda sığınacaqda 200-dən çox qadın məskunlaşıb. Onlar öz uşaqları ilə sığınacaqda yaşayırlar: "Birliyin əvvəlki sığınacağı çox sayda məişət zorakılığı qurbanı olan qadını qəbul etməyə imkan vermirdi. Amma yeni sığınacağın sahəsi böyükdür. Burada qadınların öz uşaqları ilə qalması üçün hər bir şərait yaradılıb. Sığınacaqda reabilitasiya otaqları, yataq otaqları, böyük yeməkxana, sanitar qovşaq, dərs otağı var. Burada yerləşən qadınlara psixoloji və hüquqi yardım göstərilir. Onların övladlarına sənəd alınır. Çünki, sığınacağımıza gələnlərin əksəriyyəti qeyri-rəsmi nikahdan uşaq dünyaya gətiriblər. Bu zaman uşaqların atalığı müəyyən olunur. Ondan sonra həmin uşaqlara sənəd hazırlanır. Bu gün sığınacaqda xeyli sayda uşaq var ki, biz onlara sənəd ala bilmişik. Bunun üçün aidiyyatı qurumlar bizə dəstək göstərir".

M. Zeynalova Azərbaycanda bu il sığınacağa 490 qadının məişət zorakılığına məruz qaldığı üçün müraciət etdiyini söyləyir. Birlik sədri deyir ki, qadınların pozulmuş hüquqlarının bərpası istiqamətində aidiyyatı dövlət qurumları ilə birgə iş aparılır, onların zorakılığa məruz qaldığını sübut etmək üçün ekspertizadan keçməsi təmin olunur.

M. Zeynalova onu da bildirir ki, bu gün sığınacaqda təkcə Azərbaycan vətəndaşlarına yox, Azərbaycanda məişət zorakılığına məruz qalmış xarici ölkə vətəndaşlarına da dəstək göstərilir.

Birlik sədri deyir ki, sığınacağa sığınan qadınların çoxu savadsız olduğundan onlara müxtəlif peşə məktəblərində peşələrə yiyələnmələri üçün dəstək göstərilir, işlə təmin olunmaları üçün aidiyyatı qurumlara müraciət edilir.

Sığınacağa gələn kimi həmsöhbət olduğumuz Güllü də gələcəkdə peşə öyrənmək istəyindədir. Onun sözlərinə görə, evini tərk edərək sığınacağa üz tutmasının səbəbi yoldaşının ona şiddət göstərməsidir: "Yoldaşım spirtli içkiyə aludə olub. Ona görə də bizim ailə düzənimiz dağıldı. Bir-birimizi sevsək də, uşaqlar doğulandan sonra ailəyə münasibəti dəyişdi. Hər gün içib məni və uşaqları döyürdü. Mən də uşaqlarımı götürüb gecəylə evi tərk edib Bakıya gəldim".

M. Zeynalova deyir ki, zorakılıq olan ailələrdə uşaqlar da şiddətə məruz qalır. Birlik sədri qeyd edir ki, bu il sığınacağa daxil olanların 22-si yeniyetmədir. Sığınacaq sakinlərindən 201-i qadın, 216-ı isə uşaqdır. Onun sözlərinə görə, 17 uşaq isə sığınacağa valideynsiz daxil olub. Onlar sığınacağa müxtəlif polis bölmələrindən gətiriliblər. Sığınacağa daxil olanlardan ikisi erkən nikaha daxil olan 13 yaşlı qızlardır. Onlar artıq dünyaya övlad belə gətiriblər".

M. Zeynalova bildirir ki, hazırda sığınacaqda oxumaq-yazmaq bilməyən uşaqlar var: "Burada ümumiyyətlə təhsil almayan uşaqlar da var. Hazırda onları təhsilə cəlb etmək mümkün deyil. Çünki, sığınacağa sığınan uşaqlar arasında heç bir sənədi olmayan uşaqlar da var".

O, bildirib ki, belə uşaqlara sığınacağın pedoqoqu tərəfindən dərslər keçirilir ki, onlar təhsildən tam kənar qalmasınlar. Sığınacaqda məskunlaşan uşaqların əsas problemlərindən biri ərazidə təhsil müəssisəsinin olmamasıdır. Bu səbəbdən də valideynləri onları uzaqda yerləşən məktəblərə aparıb-gətirməli olurlar. Sığınacağın yolunun abad olmaması isə onların bu çətinliyini daha da artırır.

Qeyd edək ki, Azərbaycanda uşaq hüquqlarının bütün sahələr üzrə meyarlarının müəyyənləşdirilməsi ilə bağlı sənəd hazırlanır və bunun üzərində iş aparılır. Ailə Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova bildirib ki, bu günə qədər belə bir sənəd mövcud olmayıb. Bu sənəd çərçivəsində müəyyən kriteriyalar müəyyənləşdirilir. Sənəd hazırdır və aidiyyatı qurumlara göndərilib. Eyni zamanda uşaqlara sosial xidmət göstərən mərkəzlərin keyfiyyət göstəricilərinə dair tələblər müəyyənləşdirilir. Fövqəladə vəziyyətlərdə və digər çətin şəraitlərdə uşaqların təhlükəsizliyinin təmin edilməsi və bərabərliyin gözlənilməsi sənədi üzərində də iş gedir.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



## Jurnalistə güc tətbiq edən DSX mayoru ilə bağlı bəyanat

***"Dövlət Sərhəd xidmətinin zabiti, mayor Rövşən Cahangirovun xidməti vəzifəsini yerinə yetirən, hərbi helikopter qəzası zamanı həlak olmuş hərbçilərlə vida mərasimində çəkiliş aparmaq istəyən "Baku TV"nin əməkdaşlarına qarşı nalayiq hərəkəti yolverilməzdir, jurnalistlərin sərbəst fəaliyyətinə maneçilik cəhdidir".***

"Unikal" xəbər verir ki, bu barədə Azərbaycan Mətbuat Şurasının yaydığı bəyanatda qeyd olunub.

Bildirilib ki, media orqanının böyük ictimai və mənəvi əhəmiyyət daşıyan hadisəni işıqlandırmaq, bu xüsusda məlumat toplamaq məqsədinin qarşısı alınmamalıdır. Media orqanının nümayəndələrinə qarşı güc tətbiqi elementləri ilə müşaiyət edilən davranışlar yolverilməzdir. Bu, demokratik cəmiyyət, hüquqi dövlət quruculuğu prosesində jurnalistikanın daşıdığı missiyaya önəm verildiyi bir ölkənin prinsiplərinə ziddir. Belə xoşagəlməz halın yaşanması ciddi təəssüf hissi doğurmaqdadır.

"Azərbaycan Mətbuat Şurası "Baku TV"nin əməkdaşlarına münasibətdəki rəftarı qətiyyətlə pisləyir. Şura Dövlət Sərhəd Xidmətinin rəhbərliyinin diqqətini baş vermiş hadisəyə çəkərək qurumu kobudluğa yol vermiş əməkdaşı barədə müvafiq ölçü tədbiri götürməyə çağırır. Azərbaycan Mətbuat Şurası onu da bəyan edir ki, demokratik cəmiyyət, hüquqi dövlət quruculuğu yolunda inamla addımlayan Azərbaycanda jurnalistin qanuni fəaliyyətinə maneçilik cəhdlərinin gələcəkdə də təkrarlanmaması üçün "Baku TV" əməkdaşlarının üzləşdiyi duruma həssas yanaşılması mütləqdir. Şura ümüd edir ki, bu yanaşma konkret əməllərdə əksini tapacaq, baş vermiş hadisəyə layiqli qiymət veriləcəkdir", - bəyanatda vurğulanıb.

## Diaspor nümayəndələrinin Şuşaya növbəti səfəri

***Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə bir qrup diaspor nümayəndəsinin Şuşaya dördüncü səfəri başlayıb.***

"Biz dəmir yumruğun gücü ilə Şuşadayıq" şüarı altında gerçəkləşən sayca dördüncü səfərdə 12 ölkədən 27 diaspor nümayəndəsi iştirak edir.

Səfər çərçivəsində diaspor nümayəndələri Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərinin baş meydanı "Bazarbaşı"nı, Cıdır düzünü, erməni vandalizminə məruz qalmış "Güllələnmiş heykəllər"in olduğu meydanı, Şuşa Bəyannaməsinin imzalandığı məkanı, Xurşidbanu Natəvanın evini, "Xan qızı bulağı"nı, Gəncə Qapısını, Saatlı, Aşağı və Yuxarı Gövhərağa məscidlərini və digər görməli yerləri ziyarət edəcəklər. Soydaşlarımız qədim şəhərdə aparılan yenidənqurma və abadlıq işləri ilə də tanış olacaqlar.

Şuşaya son 30 ildə ilk dəfə ayaq basan diaspor nümayəndələri bu xoşbəxtliyi onlara bəxş edən Ali Baş Komandana və Azərbaycan Ordusuna təşəkkür ediblər.

# Bu il 50 mindən çox şəxsə əlillik təyin edilib

*Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyində Milli Məclisin deputatları Musa Quliyev, Məlahət İbrahimqızı, Sevinc Hüseynova, Arzu Nağıyev, Aqil Məmmədov, İlham Məmmədov və Soltan Məmmədovla görüş olub.*

Nazirlikdən "Unikal"a verilən məlumata görə, görüşdə Agentliyin sədri Anar Bayramov millət vəkillərinə tibbi-sosial ekspertiza və reabilitasiya sahəsində aparılan işlər barədə məlumat verib. O, əlilliyin qiymətləndirilməsi üzrə rəqəmsal infrastrukturun təkmilləşdirilməsi üçün son aylarda tətbiq olunan yenilikləri qeyd edib. Nəticədə bu e-sistemin funksional imkanlarının xeyli genişləndiyini, tibbi-sosial ekspertizanın operativliyi və daha şəffaf, obyektiv həyata keçirilməsi imkanlarının artdığını bildirib.

A.Bayramov 2021-ci ilin ötən dövründə artıq 50 mindən çox şəxsə əlillik təyin edildiyini deyib. Vətən müharibəsinin 2200 qazisinə ölkəmizin ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar əlillik təyinatı aparıldığını qeyd edib.

Əlilliyi olan şəxslərin reabilitasiya xidmətləri ilə təminatı işlərindən də bəhs olunub.

Qeyd edilib ki, Prezident İlham Əliyevin tapşırığına əsasən 2019-2021-ci illərdə Agentliyin 12 reabilitasiya və sosial xidmət müəssisəsi əsaslı təmir olunaraq yenidən qurulub və ən müasir avadanlıqlarla təchiz edilərək istifadəyə verilib.

Müasir tələblərə uyğun qurulmuş reabilitasiya sistemi möhtəşəm Zəfərimizlə başa çatan Vətən müharibəsində yaralanmış hərbçilərimizin də yüksək səviyyədə reabilitasiya xidmətləri ilə təminatında mühüm bazadır. Agentliyin reabilitasiya müəssisələrində 1600 qaziyə, bu ilin 11 ayında əlilliyi olan şəxslər, habelə müharibə əlillərindən ibarət 7500-dən çox şəxsə reabilitasiya xidmətləri göstərilib. Yaxın günlərdə Qəbələ Uşaq Reabilitasiya Mərkəzi, gələn il isə Şəmkir Uşaq Reabilitasiya Mərkəzi də istifadəyə veriləcək.

2021-ci ilin 11 ayı ərzində Agentlik tərəfindən 8 minə yaxın əlilliyi olan şəxsə 41 mindən çox protez-ortopedik və digər reabilitasiya vasitəsi, o cümlədən 953 mühərrikli təkərli oturacaq verilib. O cümlədən, 1084 müharibə əlilinə 10823 reabilitasiya vasitəsi təqdim edilib. Vətən müharibəsində yaralanmış, aşağı və yuxarı ətrafları amputasiya edilmiş 164 hərbçi 172 ən müasir 4-cü nəsil elektron protezlə təmin edilib.

Görüşdə millət vəkillərinin əlilliyin qiymətləndirilməsi və reabilitasiya sahəsi ilə bağlı rəy və təklifləri dinlənilib, sualları cavablandırılıb, müvafiq mövzuda fikir mübadiləsi aparılıb.

# Kredit üçün nə qədər tələbə müraciət edib?

*Tələbə təhsil kreditlərinin verilməsi üçün müraciətlərə yeni başlanılıb. Artıq bir neçə yüz tələbə prosesi tam olaraq yekunlaşdırıb, bəzilərinə hətta təsdiq də verilmişik.*

"Unikal" xəbər verir ki, bunu təhsil naziri Emin Əmrullayev jurnalistlərə açıqlamasında deyib. O bildirib ki, sistem yeni olduğundan hər hansı çatışmazlıqların, qüsurların, nöqsanların olması gözlənilir:

"Təbii ki, bunların aradan qaldırılması labüddür. Hesab edirəm ki, həmin problemlər zamanla aradan qaldırılacaq. 18 yaşından aşağı olan tələbələrin kredit alması ilə bağlı narazılıq həllini tapır. Bəzi narazılıqlar isə anlaşılmazlıqla bağlıdır. Sosial problemi olanlar sosial kreditə, sosial problemi olmayanlar isə daha yüksək bal yığıb standart güzəştlərdən yararlana bilər. Bu kreditlər sosial alətlərdir. Zamanla cəmiyyətlə birgə çalışaraq vəziyyəti düzgün normal şəkildə təmin edə bilərik".

# Helikopter qəzasında şəhid olan hərbçilərdən neçəsi müharibə iştirakçısıdır?

*Noyabrın 30-u saat 10:40 radələrində Dövlət Sərhəd Xidmətinin hərbi helikopteri Xızı rayonu ərazisində yerləşən "Qaraheybət" aviasiya poliqonunda təlim uçuşları yerinə yetirərkən qəzaya uğrayıb. Hadisə nəticəsində 14 nəfər həlak olub, 2 nəfər yaralanıb.*

"Unikal"ın məlumatına görə, helikopter qəzasında şəhid olan hərbçilərimizdən 7-si Vətən müharibəsində iştirak edib, orden və medallarla təltif olunublar.



Polkovnik Fizuli Cavadov Vətən müharibəsi ilə bərabər Birinci Qarabağ müharibəsində də döyüşüb. Xidmət etdiyi dövrdə 13 orden və medalla təltif olunub. Vətən müharibəsində aktiv döyüş əməliyyatlarında iştirak edən polkovnik şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Prezidentin sərəncamı ilə 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif olunub.

Polkovnik Emil Nəzirov xidmət dövründə 13 medalla təltif olunub. Birinci Qarabağ müharibəsində, eyni zamanda Vətən müharibəsində iştirak edib və dövlət başçısının sərəncamı ilə "Vətən uğrunda" medalı ilə təltif edilib.

Mayor Murad Məmmədov xidmət dövründə əldə etdiyi yüksək nailiyyətlərə görə ümumilikdə 9 medalla təltif olunub. Vətən müharibəsində aktiv döyüş əməliyyatlarında iştirak edib. "Hərbi xidmətlərə görə" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunub.

Mayor Emil Mayılov xidmət dövründə əldə etdiyi yüksək nailiyyətlərə görə ümumilikdə 9 medalla təltif olunub. Vətən müharibəsində iştirak edən şəhid mayor "Hərbi xidmətlərə görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olunub.

Mayor Emil Əliyev xidməti dövründə 9 medal alıb. Vətən müharibəsində iştirak edən mayor Əliyev "Hərbi xidmətlərə görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olunub.

Mayor Elmir Həsənov xidmət müddətində 7 orden və medalla təltif olunub. Vətən müharibəsində iştirak edən mayor "Hərbi xidmətlərə görə" və 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilib.

Mayor Elbrus Əhmədov xidmət dövründə əldə etdiyi yüksək nailiyyətlərə görə Dövlət Sərhəd Xidmətinin rəisi tərəfindən 5 medalla təltif olunub.

Kapitan Cavid Bayramlı xidməti dövründə 3 medalla təltif olunub. Vətən müharibəsində aktiv döyüş əməliyyatlarında iştirak edib. "Hərbi xidmətlərə görə" və "Zəngilanın azad olunmasına görə" medalları ilə təltif olunub.

Tibb xidməti kapitanı Ceyhun Əhmədxanov xidmət dövründə əldə etdiyi yüksək nailiyyətlərə görə Dövlət Sərhəd Xidmətinin rəisi tərəfindən "Hərbi xidmətdə fərqlənməyə görə" III dərəcəli medalı ilə təltif edilib.

Kapitan Xəyyam Əliyev xidmət etdiyi dövrdə əldə etdiyi yüksək nailiyyətlərə görə Dövlət Sərhəd Xidmətinin rəisi tərəfindən "Azərbaycan Sərhəd Mühafizəsinin 100 illiyi (1919-2019)" medalı ilə təltif olunub.

Kapitan Teymur Qaraisayev hərbi xidmət dövründə əldə etdiyi yüksək nailiyyətlərə görə Dövlət Sərhəd Xidmətinin rəisi tərəfindən 4 medalla təltif olunub.

Baş leytenant Fərid Nağıyev hərbi xidmət dövründə əldə etdiyi yüksək nailiyyətlərə görə Dövlət Sərhəd Xidmətinin rəisi tərəfindən "Azərbaycan Sərhəd Mühafizəsinin 100 illiyi (1919-2019)" medalı ilə təltif edilib.

Leytenant Abdulla Süleymanov hərbi xidmət dövründə əldə etdiyi yüksək nailiyyətlərə görə Dövlət Sərhəd Xidmətinin rəisi tərəfindən "Hərbi xidmətdə fərqlənməyə görə" III dərəcəli medalı ilə təltif edilib.

İşçi, ehtiyatda olan polkovnik Elçin Nəbiyev 2014-cü ildən Dövlət Sərhəd Xidmətində işə qəbul edilib. E.Nəbiyev xidməti dövründə əldə etdiyi yüksək nailiyyətlərə görə ümumilikdə 9 medalla təltif olunub.

***Anar Kəlbiyev***

# Anar Kərimov Avropa Şurası Bakı ofisinin rəhbəri ilə görüşüb

*Azərbaycan Respublikasının mədəniyyət naziri Anar Kərimov dekabrın 1-də Avropa Şurasının (AŞ) Bakıdakı ofisinin rəhbəri, səfir Zoltan Hernyes ilə görüşüb.*

Səfiri salamlayan nazir Azərbaycanla Avropa Şurası arasında mədəniyyət sahəsində əməkdaşlığın daha da genişləndirilməsi üçün əlverişli imkanların mövcudluğunu diqqətə çatdırıb.



AŞ ilə ölkəmiz arasında birgə fəaliyyətin əhəmiyyətini qeyd edən Anar Kərimov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 2008-ci ildə irəli sürülən "Bakı Prosesi" təşəbbüsü çərçivəsində 2011-ci ildən ənənəvi keçirilən Dünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində qarşılıqlı uğurlu əməkdaşlığı bir daha vurğulayıb.

Daha sonra Anar Kərimov ölkəmizin irəli sürdüyü "Mədəniyyət naminə sülh" (Peace4Culture) qlobal kompaniyası haqqında söz açıb. Bildirib ki, bu kompaniya mədəni irsin qorunması, dinc və dayanıqlı sülhsevər cəmiyyətlərin qurulması və beynəlxalq sülh sistemlərinin gücləndirilməsi, eləcə də sülhün əldə olunmasında mədəniyyətin rolu ilə yanaşı, mədəniyyətin inkişafında sülhün rolunun öyrənilməsi məqsədi daşıyır. Nazir bu qlobal layihədə Avropa Şurasını da tərəfdaş təşkilat kimi görmək istədiyini dilə gətirib.

Görüş tərəfləri maraqlandıran məsələlərin müzakirəsi ilə davam edib.

# Kamran Əliyev Ukraynada səfərdədir

***Ukraynanın Baş prokuroru İrina Venediktovanın dəvəti ilə Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Ukraynada işgüzar səfərdə olub.***



Bu barədə Baş Prokurorluğun Mətbuat xidmətindən "Unaikal"a verilən məlumatda bildirilib. Baş prokuror İrina Venediktova noyabrın 30-da ölkəmizdə baş vermiş helikopter qəzası nəticəsində hərbi qulluqçuların həlak olması ilə bağlı başsağlığını bildirib, həlak olanların ailə üzvlərinə səbr diləyib, yaralananların tezliklə sağalmasını arzulayıb.

Kamran Əliyev ukraynalı həmkarına başsağlığına görə minnətdarlığını bildirib. Keçirilmiş ikitərəfli görüşdə Baş prokuror səmimi qəbula görə təşəkkürünü bildirərək ölkələrimiz arasında zəngin tarixi və mədəni irsə köklənən mehriban dostluq münasibətlərinin mövcudluğunu vurğulamaqla bu münasibətlərin qarşılıqlı hörmət və etimada əsaslanan qurumlararası əməkdaşlığın inkişafına töhvə verdiyini qeyd etdi. Baş prokuror Azərbaycan Respublikasının Prezidenti I?lham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata kec?irilən islahatlar çərçivəsində prokurorluq orqanlarının fəaliyyətinin və strukturunun təkmilləşdirilməsi istiqamətində aparılmış hərtərəfli və institusional tədbirlər, kadr potensialının gücləndirilməsi, yeni nəsil prokurorların formalaşdırılması və peşəkarlığının artırılması, habelə prokurorluğun maddi-texniki bazasının möhkəmləndirilməsi və işçilərin sosial müdafiəsinin yaxşılaşdırılması ilə əlaqədar əldə olunmus? uğurlu nəticələr barədə ətraflı məlumat verib.

Həmçinin görüş zamanı qarşılıqlı maraq doğuran bir sıra məsələlər, o cümlədən yetkinlik yaşına çatmamış şəxslər barəsində cinayət mühakiməsinin aparılması, nifrət zəminində törədilmiş cinayətlər, məişət zorakılığı, cinayət yolu ilə əldə edilmiş gəlirlərin leqallaşdırılması, korrupsiya cinayətləri, habelə prokurorluq fəaliyyətinin rəqəmsallaşdırılması mövzuları üzrə səmərəli fikir mübadiləsi aparılıb.

Görüşdə əlaqələrin gələcək konturlarını müəyyən edən "Azərbaycan Respublikasının Baş Prokurorluğu və Ukrayna Baş prokurorunun Ofisi arasında əməkdaşlıq haqqında Razılaşma" imzalanıb.

Daha sonra Ukrayna Prezidenti Volodimir Zelenskinin iştirakı ilə Ukrayna prokurorluğunun yaradılmasının 30 illiyinə həsr olunmuş yubiley tədbiri keçirilib.

Tədbir çərçivəsində "Kleptokratiya və qanunsuz maliyyə axımları" mövzusunda Beynəlxalq Antikorrupsiya Forumu öz işinə başladı. Forumda çıxış edən Baş prokuror dövlət başçısının siyasi kursuna uyğun olaraq ölkəmizdə korrupsiyaya qarşı aparılan hüquqi və institusional tədbirlər, Baş Prokurorluq yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rolu barədə məlumat verərək, cinayət yolu ilə əldə olunmuş əmlakın müsadirəsi və bərpası sahəsində beynəlxalq əməkdaşlığın vacibliyini vurğulayıb.

Forum çərçivəsində Litva, Bolqarıstan, Estoniya və sair ölkələrin baş prokurorları, həmçinin nüfuzlu beynəlxalq təşkilatların rəhbər şəxsləri ilə görüşlər keçirildi, mövcud əlaqələr və gələcək əməkdaşlıq perspektivləri müzakirə edilib.

Səfər çərçivəsində nümayəndə heyəti tərəfindən Kiyevdə xalqımızın ümummilli lideri, Ulu Öndər Heydər Əliyevin adını daşıyan park ziyarət edildi, abidəsi önünə əklil qoyularaq xatirəsi ehtiramla yad olunub.

# Yardımlının qəhrəman oğlanları unudulmur




***Dağlar diyarı Yardımlının igid oğlanları İkinci Qarabağ müharibəsində göstərdiyi qəhrəmanlıqla sözün əsl mənasında tarix yazdılar. Mahmud Əflatun oğlu Mayıllı, Sadiq Tahir oğlu Feziyev, Elşən Nazim oğlu Sultanlı da məhz Vətən, torpaq uğrunda canından keçdilər. İndi dağlar diyarı öz igid oğlanlarını bir an belə unutmur, həmişə onları böyük ehtiramla yad edir. Bu günlərdə hər üç qalib şəhidin anım mərasiminə rayonun əksər hissəsi qatılmışdı.***

Yardımlı Rayon İcra Hakimiyyətinin başçısı Ayaz Əsgərov başda olmaqla qəhrəman Vətən oğlanların məzarları ziyarət edildi üzərinə gül dəstələri qoyuldu. Ayaz müəllim çıxış edərək 44 günlük Vətən müharibəsində qazanılan zəfərdən, bu müqəddəs yolda canından keçən şəhidlərin döyüşlərdə göstərdiyi şücaətdən, ölkəmizdə şəhid ailələrinə olan diqqət və qayğıdan danışdı. Natiq onu da vurğuladı ki, Vətən müharibəsində tarix yazan Mahmud, Sadiq, Elşən kimi qəhrəman döyüşçülər Azərbaycanın haqq uğrunda mübarizə aparmaq əzmini, əsl döyüş ruhunu, xalqın halal torpağına olan sevgisini bütün dünyaya göstərdilər.

İkinci Qarabağ müharibəsində erməni faşistlərə qarşı qəhrəmancasına vuruşub adını tarixə yazan qalib şəhid Mahmud Mayıllı Yardımlı rayonu, Avaş kəndində anadan olmuşdur. Dağlar diyarının qəhrəman oğlu Vətən yolunda şəhid olanda ömrünün 18 ilini yaşayırdı. O, Füzuli-Xocavənd istiqamətində gedən döyüşlərdə özünəməxsus hünər göstərir. Vətən torpaqların azadlığı naminə son nəfəsə qədər düşmənə qan qusdurur. Onun bu hünəri ölümündən sonra dövlət tərəfindən" Vətən uğrunda", Füzulinin, Xocavəndin azad olmasına görə medallara layiq görülür

Yardımlı rayonunun Zevin kəndində dünyaya göz açmış Sadiq Feziyev 2013-cü ildə hərbi xidmətə gizir (feldşer) kimi başlayır. Nümunəvi xidməti ilə seçilir, "Azərbaycan Ordusunun 100 illiyi(1918-2018)" yubileyi medalını alır. O, Vətən müharibəsinə birinci qoşulur Ağdərə istiqamətində gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalır. Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatıldığı və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Suqovuşanın azad olunmasına görə" medallarına layiq görülür.

Elşən Sultanlı isə 15 fevral 2001-ci ildə Yardımlı rayonunun Teşkan kəndində anadan olub. 2019-cu ilin aprel ayında həqiqi hərbi xidmətə çağırılır. Onun Vətən sevgisi əsgər yoldaşlarının dilində dastana dönür. İkinci Qarabağ müharibəsində Elşən Vətənin hər qarış torpağı uğrunda mərdliklə döyüşür erməni faşistlərinə ciddi itkilər verir. Suqovuşan-Ağdərə istiqamətində gedən döyüşlərdə şəhadətə qovuşur. Yardımlının igid oğlu ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" ," Suqovuşanın azad olunmasına görə" və "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif olunur.

***Zəfər Orucoğlu, AJB üzvü***



# Noyabrda 9 nəfər mina qurbanı olub

***2021-ci ilin noyabr ayında 7 hadisə nəticəsində 9 nəfərin mina qurbanı olması qeydə alınıb.***

Bu barədə "Unikal"a "Minalar Əleyhinə Azərbaycan Kampaniyası"ndan məlumat verilib. Bildirilib ki, həmin faktlar rəsmi strukturlardan, regional koordinatorlardan və digər mənbələrdən alınmış məlumatlar nəticəsində toplanıb.

Baş vermiş hadisələr nəticəsində 1 mülki şəxs həlak olub, 8 nəfər yaralanıb. Bunlardan 1 nəfər minatəmizləyən, 1 nəfər sərhədçi, 2 nəfər Daxili Qoşunların hərbi qulluqçusu və 4 nəfər mülki şəxsdir.

2021-ci ilin noyabr ayında 6 hadisəyə piyadalar əleyhinə, 1 hadisəyə isə tank əleyhinə minalar səbəb olub. Hesabat dövründə minalarla bağlı hadisələr Cəbrayıl, Ağdam, Goranboy, Laçın, Füzuli və Zəngilan rayonlarının ərazisində baş verib.

"Minalar Əleyhinə Azərbaycan Kampaniyası" ictimai birliyi tərəfindən 2021-ci ilin ötən dövründə Azərbaycan Respublikasının 97 vətəndaşının minalardan və partlamamış hərbi sursatlardan zərər çəkdiyi qeydə alınıb.

"Minalar Əleyhinə Azərbaycan Kampaniyası" bir daha əhaliyə müraciət edərək xahiş edir ki, işğaldan azad olunmuş ərazilərə səfər etməsinlər, partlamamış hərbi sursatlara toxunmasınlar.

# Sabahın hava proqnozu

***Azərbaycanda sabaha gözlənilən hava şəraiti açıqlanıb.***

Milli Hidrometeorologiya Xidmətindən "Unikal"a verilən məlumata görə, sabah Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Şimal-qərb küləyi gündüz mülayim cənub-qərb küləyi ilə əvəz olunacaq.

Havanın temperaturu gecə 4-7° isti, gündüz 9-13° isti, Bakıda gecə 5-7° isti, gündüz 11-13° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək 769 mm civə sütunu təşkil edəcək. Nisbi rütubət 60-70 % olacaq.

Azərbaycanın rayonlarında hava əsasən yağmursuz olacaq. Gecə və səhər saatlarında duman olacaq, şərq küləyi bəzi yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 1-6° isti, gündüz 8-13° isti, dağlarda gecə 3-8° şaxta, gündüz 0-5° isti olacaq.

# Metroda telefon oğurladı, tutuldu

***Bakı Metroplitenində Polis Şöbəsinə noyabrın 24-də "Gənclik" stansiyasında Bakı şəhər sakini Ş.Rəcəbovanın mobil telefonunun oğurlanması barədə məlumat daxil olub.***

Bu barədə Daxili İşlər Nazirliyindən (DİN) "Unikal"a verilən məlumatda bildirilib.

Polis əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində oğurluq əməlini törətməkdə şübhəli bilinən paytaxt sakini A.Xəlilov müəyyən edilərək saxlanılıb. Rəsmi məlumata görə, araşdırma aparılır.

## Ermənistanın gələcəyi bu riska bağlıdır - Paşinyan ya edəcək, ya gedəcək

***"Hesab edirəm ki, İrəvanı müxtəlif maraqlar müxtəlif istiqamətlərə parçalayır".***

Bunu Milli.Az-a açıqlamasında amerikalı analitik İrina Tsukerman deyib. Amerikalı xanım şərhçi bildirib ki, revanşist qüvvələr, erməni diaspora lobbiləri Kreml hökümətinə təzyiq edərək üçtərəfli bəyanatın icrası prosesini ləngidir:

"Ermənistanda əhalinin böyük hissəsi müharibələrdə məğlub olmaqdan, iqtisadi asılılıqdan, yoxsulluqdan və korrupsiyadan yorulub. Üçtərəfli bəyanatın tam şəkildə həyata keçirilməsi isə daha yaxşı gələcək, regionda inteqrasiya, qonşularla sülh və ölkənin inkişafı üçün imkanlar yaradır. Biz artıq Ermənistanın Türkiyə ilə ticarətə açılmasının ilkin əlamətlərini görmüşük.

Lakin, revanşistlər, erməni diaspora lobbiləri Kreml hökümətinə təzyiq edərək prosesi ləngidir və ya sabotaj edirlər. Buna biz Nikol Paşinyanın Zəngəzur dəhlizinin açılmasına qarşı çıxmasından, İranla qeyri-qanuni əlaqələrin davam etdirilməsindən, hərbi gücdən istifadə etməsindən, sərhədlərdə güc tətbiq edərək bütün razılaşmanı pozmağa xidmət edən terror təxribatlarına göz yummaq kimi hadisələr zamanı şahid olduq. Bakı ilə münasibətlər hələ o yerə çatmayıb ki, İrəvan tam normallaşmanı açıq şəkildə qəbul edə bilsin. İki xalq arasında gərginlik hələ də güclüdür və üçtərəfli bəyanatı gücləndirmək üçün bu səyləri ictimaiyyətə tətbiq etmək həm də indiki məqamda biraz risk tələb edir.

Üstəlik, Moskva Ermənistanı iqtisadi və siyasi cəhətdən asılı ölkə kimi saxlamaqda maraqlıdır və onun görüşdə vasitəçi kimi mövcudluğu Kremlin regiondakı mövqeyini buraxmaq fikrində olmadığına işarədir. Bununla belə, mən iddia edərdim ki, danışıqlar yolu ilə etimadın möhkəmləndirilməsi tədbirləri və gərginliyin həllində mərhələli addımlar atmaqla, eyni zamanda müəyyən irəliləyişin ölçülə bilən meyarlarına, bütün tərəflər tərəfindən məqbul olan razılaşdırılmış vaxt qrafiklərinə əsaslanaraq sazişin icrasına doğru addımlar atmaq olar. Belə həssas bir ssenaridə gözləntiləri idarə etmək ondan da vacibdir. Unutmayaq ki, yaxın vaxtlarda (16 dekabrda) Brüsseldə Bakı və İrəvan arasında ikitərəfli görüş yaxınlaşır və burada tərəflər müzakirələr zamanı Kremlin təsiri olmadan birbaşa və açıq şəkildə kontakt yaratmaq imkanı əldə edəcəklər".

***Təhməz Əsədov***

## ABŞ-la AB uduzdu, Qarabağ belə olacaq - Korıbko

***Ermənistana döyüş meydanında qələbə qazanan Azərbaycandan başqa, Rusiya və Türkiyə də daha qlobal səviyyədə qələbə qazanıb, ABŞ və Avropa Birliyi isə uduzan tərəfdir.***

Bunu amerikalı politoloq Endryu Korıbko deyib. "Erməni diasporu Ermənistanda hakimiyyəti tamamilə nəzarətə götürüb, bu amil İkinci Qarabağ müharibəsi zamanı özünü göstərdi. Diaspor Ermənistanı təhlükəli və demək olar ki, məhvedici vəziyyətə salıb. Onun məqsədi Rusiyanı münaqişəyə cəlb etmək idi. ABŞ-dakı erməni diasporu Rusiya-Türkiyə müharibəsini qızışdırmaq istəyirdi. Amma hər iki ölkə qalib gəldi, diasporun ultramillətçi əhval-ruhiyyəli nümayəndələri isə məğlub oldu", - ekspert qeyd edib.

Onun sözlərinə görə, Azərbaycanın Qarabağ iqtisadi zonası çox dəyişəcək və bu reabilitasiya modeli digər regional münaqişələr üçün nümunə ola bilər:

"Müharibədən sonrakı Qarabağ 10 il ərzində möhtəşəm məkana çevriləcək. Siz orada sürətli inkişaf görəcəksiniz. Azərbaycan da öz çoxqütblü nüfuzunu uğurlu reinteqrasiya, Qarabağın bərpası vasitəsilə qurur. Hesab edirəm ki, iqtisadi diplomatiyanın bu modeli xarici oyunçuları sərmayə yatırmağa cəlb edə bilər. Həmin model Hindistan, Pakistan və Çin arasında sinerjini yaratmaq üçün, məsələn, Kəşmir münaqişəsinin həlli üçün də istifadə oluna bilər".


**ELAN**

**Xanmədova Məryəm Bahadır qızına, 2019/2020-ci tədris ilində Quba Şəhəri 6 nömrəli tam orta məktəb tərəfindən verilmiş E N311106 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.**


# İran, uran və İsrail... - ŞƏRH

***Ötən həftə "Mossad"ın keçmiş rəhbəri Yosi Koen ölkəsinin milli təhlükəsizliyinə həsr olunmuş konfransda çıxış edərkən bildirib ki, 2018-ci ildə Tramp hökuməti İranla nüvə razılaşmasından çıxdıqdan sonra İran uranın zənginləşdirilməsi işində xeyli irəliləyib.***



O zaman "Mossad"ın İranın gizli "nüvə arxivini" oğurladığı və ABŞ-a ondan təkzibolunmaz sübutlar təqdim elədiyi, Trampın da məhz bundan sonra sözügedən beynəlxalq sazişdən çıxmaq qərarı verdiyi deyilirdi.

Saziş imzalanan vaxt İsrailin müdafiə naziri olmuş Moşe Yaalon isə elə həmin konfransdaca söyləyib ki, o əvvəldən sazişin əleyhinə olsa da, ABŞ-ın - İsrailin o illərdəki baş naziri Netanyahunun öz amerikalı həmkarı Trampı fitləməsi ilə - razılaşmadan çıxmasını İranla bağlı siyasətdə "son onillikdə buraxılmış ən böyük səhv" hesab edir.

İsrail ordusunun keçmiş qərargah rəisi general Ayzenkot sabiq rəisindən iki gün sonra başqa bir konfransda bənzər fikir səsləndirib.

Netanyahu hökumətinin kəşfiyyat və hərbi rəhbərlərinin gecikmiş etirafları, görünür, səbəbsiz deyil. Onların kabineti o vaxt Trampın qərarını özünün İran üzərində böyük geopolitik qələbəsi kimi bayram edirdi, lakin indi həmin şəxslər başqa hava çalır. Özü də həyəcan təbilində. Çünki əllərində olan məlumatlar həqiqətən İsrail üçün xoşagələn deyil: İran hərbi nüvə imkanlarına ABŞ nüvə sazişindən çıxan gündəkindən daha yaxındır; sadəcə olaraq, həmin məşum gün İranın əl-qolunu açıb.

Bu isə o deməkdir ki, Netanyahu-Tramp qurğusu, ola bilər, taktiki cəhətdən uğur gətirib, lakin strateji baxımdan, böyük ehtimalla, uğursuzluğa düçar olub.

Tərs kimi, bir neçə gün qabaq MAQATE hesabat açıqlayıb və orada deyilir ki, İran artıq 25 kiloqram 93 faizə qədər zənginləşdirilmiş uran düzəltmək üçün materiala malikdir.

Mütəxəssislərin fikrincə, bu, üç həftəyə - ilk, iki aya - ikinci, üç ay yarıma - üçüncü, yarım ilə - dördüncü atom bombası qayırmağa kifayət edir.

Lakin elə həmin mütəxəssislər söyləyirlər ki, zənginləşdirilmiş uranın varlığı hələ birinci şərtdir. Sonrakı mərhələdə nüvə qurğularını yığmaq, partlayıcı düzəltmək, nüvə başlıqlarını raketlərə quraşdırmaq üçün avadanlıqlar hazırlamaq lazımdır. İsrail və Qərb kəşfiyyatçıları əmindirlər ki, bütün bu mühəndis işlərinə İranın daha il yarım vaxtı gedəcək. Bundan başqa, İran nüvə sınağı keçirmək haqda da düşünməlidir.

Hər şeyə rəğmən, İsrail analitikləri Qərbin, xüsusilə ABŞ-ın, Bayden hökumətinin İrandan gələn təhlükəni düzgün qiymətləndirmədiyini düşünürlər. Onların fikrincə, məsələnin hərbi həlli ilə bağlı həm ABŞ, həm İsrail hərbi-siyasi dairələrinin tərəddüdləri sonda, özü də tezliklə İranı atom bombasının həndəvərinə gətirib çıxaracaq və o istədiyi vaxtda bu silahı əldə edəcək.

Əslində İranın da istədiyi, belə anlaşılır ki, mollaların kütləvi qırğın silahı kimi haramlığına fətva verdikləri atom bombasına olmazsa olmaz malik olmaq yox, onu - son zərurət halı üçün! - qısa müddətdə düzəltmək potensialına malik olmaqdır.

Bu imkanı belə İrana çox görən və özünə görə haqlı olaraq çox görən İsrailin düşünən başları ölkələrinin hərbi və kəşfiyyat rəhbərlərini İran probleminin qeyri-standart həll yollarını axtarıb tapmağa çağırırlar: "Yoxsa, İsrail bu gedişlə İranın xoş məramından asılı vəziyyətə düşəcək!"

Gələn həftə İranla "altılıq" ölkələri arasında Vyanada bərpa olunacaq danışıqlar ərəfəsində bu çağırış İsrail və dünya mediasında daha bərk səslənir.

***Seymur Şahbaz-zadə***

# Petrosyan: Qarabağ bitdi, Bakı ilə razılaşmaq lazımdır!

***Tik Tok sosial şəbəkəsində Ermənistanın ilk prezidenti Levon Ter-Petrosyanın tele-müsahibəsi təkrar gündəmə gəlib.***



"Unikal" Musavat.com-a istinadən xəbər verir ki, uzun zamandan bəri öz praqmatik çıxışları ilə digər populist erməni siyasətçilərdən fərqlənən təcrübəli dövlət adamı müsahibəsində deyir ki, bütün dünya Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanıyır və bu, o deməkdir ki, məsələ bitib.

Ter-Petrosyan Azərbaycanın Qarabağ münaqişəsində səbirli davrandığını, həlledici müharibəyə uzun zaman hazırlaşdığını və qüvvələr nisbətini dəyişdiyini qeyd edərək ermənilərin bu reallığı hələ də dərk etmədiklərini bildirir. O, Köçəryanın Şuşanı və Hadrutu geri almaq barədə bəyanatını təhlükəli saydığını qeyd edərək deyir:

"Başa düşmək lazımdır ki, bu, hansı problemlərə gətirib çıxara bilər. Köçəryan doğrudanmı düşünür ki, Azərbaycan oradan çıxacaq? Köçəryan yeni müharibə başlada bilər və bu erməni xalqı üçün yeni itkilərə səbəb olar. Heç bir qüvvə Azərbaycanı oradan çıxmağa vadar edə bilməz. Sizcə, bunu Rusiya edəcək? Heç vaxt. Bütün dünya bizə deyir ki, Dağlıq Qarabağın Azərbaycanın tərkib hissəsi olmasıyla razılaşmaq lazımdır. Bizdən artıq heç nə asılı deyil. Hər şey qurtarıb. Əgər razılaşmasaq, bizi qorxunc problemlər gözləyir".

# “Qarabağ”ı gözləyən təhlükə



***“Qarabağ”ı dekabrın 9-da təkcə “Bazel”ə qarşı oyun gözləmir. Komanda qrup mərhələsinin son turunda 1-ci pilləni təmin etmək üçün həm də hakimlərlə mübarizə aparmalıdı. Son oyunlarda başverənlər bunu göstərir. Ədalət təmsiçlisi olmalı şəxslərin son turlarda İsveçrə klubuna qarşı aşkar simpatiyası, müəmmalı qərarları belə düşünməyə əsas verir.***

Dünya futbolunun “Bazel”in təmsil etdiyi ölkədən idarə olunması faktını xatırlamaq kifayətdi. “Qarabağ”ın uğurlu çıxışı kimlərinsə planlarını pozur. Ona qarşı qısqanclığı görməmək mümkün deyil.

Əslində, son tura kimi “Qarabağ” liderliyi təmin etməliydi. Keçən həftə “Bazel”in Qazaxıstanda xal itirməsi təmsilçimizin yolunu açacaqdı. Lakin “Kayrat”ın məğlub olması üçün hər şey edən gürcü hakimlər ağdamlıların “Omoniya” ilə qarşılaşmaya fərqli əhvalda çıxmasına səbəbkar oldu. Əminik ki, isveçrəlilər büdrəsəyi, “Qarabağ” kiprlilərə qarşı fərqli motivasiya olunub qrup liderliyini rəsmiləşdirəcəkdi. Lakin 2 saat öncə başlayan oyunda elə ssenari yaşandı kig

“Qarabağ” “Omoniya” ilə matça çıxarkən, istənilən halda hər şeyə İsveçrədə aydınıq gələcəyini bilirdi. Bununla belə, təmsilçimiz ən azı qrup lideri olub səfərə heç-heçə dalınca yollanmalıydı. Şahruddin Məhəmmədəliyevin son dəqiqələrdəki səhvi öz yerində, matç boyunca hakimlər qonaqların xal qazanması üçün hər şey etdi. Təqdim etdiyimiz videoya baxanda özünüz də buna şahid olacaqsız.

“Bazel”in irəli çəkilməsi hələ 4-cü turdan başlanmışdı. “Qarabağ”ın qələbələri sıraladığını görənlər onun əsas rəqibinə yardıma Kiprdə start vermişdi. Astanda isəg

- “Omoniya” - “Bazel” oyunu. 57-ci dəqiqədə isveçrəlilərin müdafiəçisi cərimə meydançasında “Omoniya”nın hücümçüsunu kobudluqla saxlayır. Lakin hakimin fiti susur. Həmin epizodun davamında, cəmi 40 saniyə sonra “Bazel” bərabərlik qolunu vurur.

- “Kayrat” - “Bazel” oyunu. Hesab 2:2 olarkən, oyunun 70-ci dəqiqəsində İsveçrə təmsilçisinin 7 nömrəli futbolçusu Paytim Kasami “Kayrat”ın hücumçusuna qarşı cərimə meydançasında kobud oynayır. Bu epizodda aşkar penalti olduğu görünür. Üstəlik, sarı vərəqə - bu isə Kasaminin meydandan qovulması demək idi. Çünki bu epizoda qədər onun passivində sarı vərəqəsi var idig 3 dəqiqə sonra “Bazel” qələbə qolunu vurur, qolun müəllifi isə məhz Kasami olur.

- Yenə “Kayrat” - “Bazel” oyunu. İsveçrə təmsilçisi 3-cü qolu vurduqdan 1 dəqiqə sonra yenə “Kayrat”ın hücümuçusuna qarşı cərimə meydançasında kobudluq olur. Bu dəfə də hakimlər “davam” deyir. Epizod zamanı hakimin verdiyi qərar hətta səbirli davranışları ilə seçilən Qurban Berdiyevi də özündən çıxarır.

- “Omoniya” ilə görüşdə “Qarabağ”ın əlehinə olan qərarlar da yetərincə idi. Abdullah Zubir iki epizodda aşkar kobudluğa məruz qalır, hakim “davam” deyir, “Qarabağ” qol vurur, hakimlər mübahisəli qərarla bu qolu qeydə almır. “Omoniya”nın müdafiçisi cərimə meydançasında əllə oynadıqda da hakim bunu “görmür”. Və ən əsas epizod - hesab 0:0 olarkən “Omoniya”nın futbolçusu Mixal Durişin Abbas Hüseynova qarşı hərəkəti - hakim sambo fəndinə görə yalnız sarı vərəqə ilə kifayətlənir.

Bütün bunları nəzərə alsaq, “Qarabağ”ı İsveçrədə nələrin gözlədiyini təsəvvür etmək çətin deyil. Yəqin ki, hakimlər yenə ağdamlıların qrup lideri olub, birbaşa 1/8 finala yüksəlməməsi üçün mümkün olan hər şeyi edəcək. Yaxşı ki, ağdamlılar minimum vəzifənin öhdəsindən çoxdan gəlib, əks halda, vaxtilə Bakıda Milan “İnter”iylə oyundakı haqsızlıq zamanı yaşadığımız məyusluq təkrarlanacaqdı.

# Yunis Hüseynov: “Yerli məşqçilərin hamısı elə bil ölüb, qırılıb”

***“Millinin baş məşqçi postuna kimlərinsə namizəd kimi adının çəkilməsi boş şeylər idi”.***



Bunu Azərbaycan millisinin sabiq futbolçusu Yunis Hüseynov apasport.az saytına açıqlamasında Canni de Byazinin baş məşqçi postunda saxlanılmasına münasibət bildirərkən deyib.

56 yaşlı mütəxəssis AFFA İcraiyyə Komitəsinin bugünkü qərarının yerində olduğunu düşünür: “De Byazinin qalması doğru qərardır. Onsuz da, yerli məşqçi təyin olunmayacaqdı. Başqa əcnəbi gətirməkdənsə, de Byazini saxlamaq düzgün idi. Çünki yeni məşqçi il yarım vaxt istəyəcəkdi. Ondan sonra da deyəcəkdi ki, komandaya indi öyrəşirəm. Həmişə belə olub. Mətbuatda yazılanlara əsasən, de Byazi maaşının yarıya endirilməsinə də razı olub. Bu mənada italiyalı ilə bağlı qərarı doğru hesab edirəm”.

Hüseynov AFFA-nın yerli mütəxəssislərlə çalışmaq istəmədiyini də etiraf edib. O, milliyə azərbaycanlı məşqçinin gətirilməyəcəyini öncədən bildiyini söyləyib: “Yerli məşqçiyə etimad göstərilməyəcəyinə əmin idim. Çünki onların azərbaycanlı mütəxəssislərə heç vaxt inamları olmayıb. Əvvəllər Ağasəlim Mircavadov, Əsgər Abdullayev, Kazbek Tuayev, Vaqif Sadıqov, Şahin Diniyev işləyib. Açığı, o vaxt heç ağlımdan da keçməzdi ki, milliyə əcnəbi məşqçi gətiriləcək. Bizim o qədər məşqçimiz var ki, elə bil hamısı ölüb, qırılıb. Sadəcə, deyirlər ki, biz yerli mütəxəssislərlə işləmək istəmirik, sizlik deyil”.

Qeyd edək ki, AFFA Canni de Byazi ilə müqavilə müddətini 2022-ci ilin oktyabrına qədər uzadıb.



# Vitse-prezident de Byazi ilə müqavilənin uzadılmasının səbəbini açıqladı

***“İclasda gərgin müzakirələr getdi və de Byazinin postunda qalması qərara alındı”.***

Bunu apasport.az saytına açıqlamasında AFFA-nın vitse-prezidenti Vaqif Sadıqov deyib.

Təcrübəli mütəxəssis Canni de Byazinin millinin baş məşqçi postunda saxlanılması ilə bağlı qərarın səbəblərini bildirib. O, italiyalı çalışdırıcının qarşısına qoyulan məqsəddən də danışıb: “De Byazinin qalmasını şərtləndirən əsas səbəb onun iki tsikldir yığmanı çalışdırması və futbolçuları çox yaxşı tanımasıdır. İtaliyalı artıq xeyli müddətdir yığmanın sükanı arxasındadır. Bu üzdən qısamüddətli - sırf Millətlər Liqası oyunlarına hesablanan müqavilə imzalandı. İclasda da bildirildi ki, qarşıdakı hədəf Millətlər Liqasında qrupdan çıxmaq olacaq. Bu üzdən de Byaziyə etimad göstərildi və onun komandanı qrupdan çıxaracağına inanırıq”.

Sadıqovun sözlərinə görə, de Byazi İcraiyyə Komitəsi üzvlərinə hesabat verib: “O bildirdi ki, yeni komanda yaradıb, bunu sona qədər çatdırmaq üçün zamana ehtiyac var. Baş məşqçi çalışdığı dönəmdə neçə oyunçuya dəvət göndərdiyini, neçə debütanta şans verdiyini və bu kimi bir çox məsələləri vurğuladı. İcraiyyə Komitəsinin üzvləri də onları maraqlandıran sualları ona verdi. Yekunda da indiki vəziyyətdə hər hansı bir dəyişikliyə ehtiyac olmadığı qənaətinə gəlindi. Çünki sentyabra kimi Millətlər Liqasında 6 vacib oyun olacaq. Bunları nəzərə alıb, de Byazi ilə yola davam qərarı verildi. Təbii ki, Millətlər Liqasındakı nəticələrə əsasən sentyabrdan sonra bir qərara gəlinəcək”.

Qeyd edək ki, Canni de Byazinin AFFA ilə müqavilə müddəti 2022-ci ilin oktyabrına qədər uzadılıb.

# Kamran Quliyev: “Bizə təbrik düşmür”

***“Səbail” üzərində qələbəyə görə bizə təbrik düşmür. Çünki özümüz bu vəziyyətə düşdük. Son matçda isə mütləq 3 xal qazanmalı idik”.***

Apasport.az saytının məlumatına görə, bunu “Neftçi”nin prezidenti Kamran Quliyev CBC Sport kanalında “Start” verilişinin qonağı olarkən deyib.

Premyer Liqanın XII turunda “Səbail” üzərində 1:0 hesablı qələbə qazanan “Neftçi” bununla ardıcıl 3 oyunluq məğlubiyyət seriyasına son qoyub. Quliyev, xüsusən də, IX turda “Qarabağ”a 0:4 hesablı yenilgini ağır nəticə sayıb: “Qarabağ”la oyun bir faciə idi. Matçın əvvəlində yaxşı epizodumuz oldu, Emin Mahmudov öz bacardığı formada zərbə vura bilsəydi, oyun tam başqa məcrada keçərdi. Ondan sonra “Qarabağ” bizim səhvlərimizdən yararlandı. Bu səviyyədə matçlarda səhvlər bağışlanılmır. Bu qarşılaşma bizim üçün faciə idi. Başqa ad qoya bilmirəm. Epizodlara baxanda adam heyfsilənir, futbolçular lazımsız yerə toplar itirdilər. “Keşlə” ilə görüşə də yaxşı başladıq, iki qol vurduq. Amma səhvlər ucbatından acınacaqlı şəkildə özümüz oyunu əldən verdik. “Keşlə” və “Sabah”la oyunlarda itirilən 6 xal çempionluq yolunda bizə böyük zərbədir. Bu da arxayınlığın nəticəsi idi. Çünki hər iki görüşdə birinci hissə tam bizim üstünlüyümüzlə keçdi. Çempionluq uğrunda vuruşan komandanın belə faciələri olmamalıdır”.

Klub rəhbəri “Səbail”lə matçdan sonra müdafiəçiləri Mamadu Mbodjun rəqibin qapıçısı Kamran Ağayevlə yaşadığı insidentə də toxunub: “Xırda insident hər matçda baş verə bilər. Həmin hadisədən sonra Emin Mahdmudov Kamrana yaxınlaşmışdı. Öz aralarında hansısa söhbətin olacağına inanmıram. Heç kimin qəsdən zədələmək fikri yox idi. Mbodj həmin anda öz qapısına tərəf qaçırdı. Feyr-pleyi və futbolçular arasında hörməti yaddan çıxarmaq olmaz. Hər ikisi təcrübəli oyunçudur. Bu hadisə yəqin elə meydançada da qalıb”.